08_27 IYUl-QARA.qxd 2/26/2026 10:51 PM Page 1

UNİKAL

№08 (2287) 27 fevral 2026-cı il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.az



# İslahatların yeni dalğası: Bəzi nazirliklər və komitələr ləğv olunur



Səh.6

## Sahil Babayev iri məmurları silkələməyə başlayır

*Azərbaycan Prezidentinin 2025-ci il 29 dekabr tarixli 570 nömrəli Fərmanına əsasən Maliyyə Nazirliyi yanında Dövlət Müəssisələrinin Monitorinqi Agentliyi cari ilin aprel ayından başlayaraq dövlət şirkətlərinin və publik hüquqi şəxslərin büdcə layihələri və proqnozlarının, həmçinin büdcələrinin monitorinqini həyata keçirəcək və icra göstəricilərini təhlil edəcək. Bu barədə qurumdan məlumat verilib. Bildirilib ki, bu məqsədlə Maliyyə Nazirliyinin kollegiya qərarı ilə dövlət şirkətlərinin və publik hüquqi şəxslərin nazirliyə təqdim edəcəkləri məlumat və hesabatların formaları təsdiq edilib. Dövlət şirkətləri və publik hüquqi şəxslər həmin formalar əsasında Dövlət Müəssisələrinin Monitorinqi Agentliyinə büdcə göstəricilərini, aylıq, rüblük maliyyə hesabatlarını və illik proqnoz məlumatlarını təqdim etməlidirlər.*

Səh.8

## "Şəhərin mərkəzində çoxmərtəbəli binaların tikintisi qadağan olunmalıdır"



*Milli Məclisin deputatı Azər Badamov "Unikal"a müsahibə verib. O, ödənişli yollarda sürət həddinin müəyyənləşməsindən, bu cür yolların sayının artırılacağından, Bakıda ödənişli hərəkət zonalarının yaradılmasından və paytaxtın tıxac məsələsinin necə həll edilə biləcəyindən danışıb.*

Səh.4

## Parlament Xocalı soyqırımı ilə bağlı müraciət etdi




*Milli Məclis tərəfindən Xocalı soyqırımının 34-cü ildönümü ilə əlaqədar xarici ölkələrin parlamentlərarası əlaqələr üzrə işçi qruplarına, parlamentlərin beynəlxalq komitələrinə və beynəlxalq parlament təşkilatlarına müraciətlər ünvanlanıb. "Unikal" xəbər verir ki, müraciətlərdə Azərbaycan xalqının...*

Səh.2

## Şeyxülislamın Abel Məhərrəmov müamması



*Bir neçə gün əvvəl Qafqaz Müsəlmanları İdarəsində (QMİ) Qərbi Azərbaycan İcmasının rəhbər heyəti ilə görüş keçirilib. Görüşlə bağlı sosial şəbəkədə paylaşılan məlumat və fotolarda bir məqam xüsusilə diqqət çəkib. Belə ki, haqqında danışılan görüşə qatılanlar arasında QMİ rəhbəri Şeyxülislam Hacı Allahşükür...*

Səh.5

08_27 IYUl-QARA.qxd 2/26/2026 10:28 PM Page 2



# "Mənə zəng edib dedilər ki, o videonu sil" - Səidə Sultan danışdı



***Müğənni Səidə Sultan aparıcı Tarix Əliyevlə yaşadığı qalmaqaldan sonra 8 mart günü səhnə alacağı restoranın afişasından adı çıxarılıb.***

Müğənni Səidə Sultan məsələnin düşünülən kimi olmadığını deyib.

Müğənni bildirib ki, o, sözügedən məkanda səhnəyə çıxmaqdan özü imtina edib: "Mən sosial şəbəkə hesabımda video yayımlayaraq o məkana bildirmişdim ki, Vəfa ilə eyni məkanda səhnə almayacağam, ya onu, ya da məni seçməlisiniz. Və sonda bildirmişdim ki, məkanın seçimi başqaları olarsa, demək o məkan da bayağılığa üstünlük verənlərdən biridir".

Müğənni deyib ki, restoran ondan həmin videonun sosial media hesabından silinməsini istəyib: "Daha sonra məkan tərəfindən mənə zəng gəldi və bildirdilər ki, yayımladığım videonu silim. Mən də razılaşmadım. Çünki mən heç kimi təhqir etməmişəm. Bundan sonra köməkçimə tapşırıq verdim ki, məkandan alınan min manat behi geri qaytarsın. Mən könüllü şəkildə o məkanda çıxış etməkdən imtina etmişəm, heç kəs məni çıxartmayıb." (azxeber.com)

# "Çal-çağır"la SOY Azərbaycan mədəniyyətinə ziyan vuranlardır" - Yeni qalmaqal

***Müğənni və aktyor Sərxan Kərəmoğlu qalmaqallı açıqlamaları ilə gündəm olub.***

O, efirdə yayımlanan bəzi verilişlərin, xüsusilə də "Çal-çağır" verilişinin Azərbaycan mədəniyyətinə ciddi ziyan vurduğunu iddia edib.

Sənətçi bildirib ki, məhz bu tip proqramlar müğənniləri hörmətdən salıb: "Müğənniləri 'hörmətsiz' edən o verilişlər oldu. 'Çal-çağır'da elə ssenarilər yazıldı ki..."

Kərəmoğlu aparıcı Elçin Əlibəyli haqqında da sərt fikirlər səsləndirib. Onun sözlərinə görə, verilişdə müğənni gəlməyəndə yerinə "balqabaq, kələm qoyulması" kimi addımlar sənət adamlarına qarşı hörmətsizlik olub: "Bu insan zamanında mədəniyyətimizə xidmət edən insanları qarşı-qarşıya qoyub. Onların mədəniyyətə vurduğu ziyanı bundan sonra 100 il keçsə də heç kim qaldıra bilməyəcək".

Aktyor əlavə edib ki, reytinq naminə sənət adamlarının nüfuzu zədələnib: "Reytinq naminə etdilər. Nə qazandılar ki, hanı indi? Sənət adamlarını gözdən saldılar".



Sərxan Kərəmoğlu həmçinin bildirib ki, arxayın edilib verilişə dəvət olunarkən efirdə işlədilən ifadəyə etiraz edib və həmin hissənin çıxarılmasını tələb edib: "Aparıcı Elçin Əlibəyli müğənni efirə gəlməyəndə onun yerinə balqabaq, kələm qoyurdu. Bu insan zamanında mədəniyyətimizə xidmət edən adamları qarşı-qarşıya qoyub. Onların mədəniyyətə vurduğu ziyanı bundan sonra 100 il keçsə də, heç kim aradan qaldıra bilməyəcək. Gözümün önündə ailələrə, övladlara nə göz yaşları, nə qarğışlar oldu. Bütün bunlar reytinq naminə edilirdi. Nə qazandılar ki? İndi nəticəsi haradadır? Sənət adamlarını gözdən saldılar. Elçin Əlibəyli məni təkidlə verilişinə dəvət etmişdi. Orada efirə getməməli olan nalayiq ifadə işlədildi. Dedim ki, həmin hissəni çıxarın, bu mənə qarşı zərbədir. Mən kiçik vəzifədə çalışan biri deyildim. Onun xisləti budur - çoxları da ondan narazıdır. Məncə, bu cür yanaşma mədəniyyətimizə xələl gətirir. Aparıcı istəsə, insanı rəzil də edə bilər, vəzir də".

Onun bu açıqlamaları sosial şəbəkələrdə geniş müzakirələrə səbəb olub. Bəzi izləyicilər sənətçinin fikirlərini dəstəkləsə də, digərləri məsələni fərqli prizmadan dəyərləndiriblər.



# İncəsənət nümayəndələri soyqırımı qurbanlarını andılar

***Ermənistan silahlı qüvvələri tərəfindən Rusiyanın 366-cı motoatıcı alayının iştirakı ilə Azərbaycanın Xocalı şəhərinin işğalı və Xocalı soyqırımının törədilməsindən 34 il keçir.***

Axşam.az xəbər verir ki, bunun bağlı incəsənət nümayəndələri sosial şəbəkədə paylaşımlar ediblər.

Onlar soyqırım qurbanlarının xatirəsini anaraq, bu dəhşətli faciəni heç vaxt unutmayacaqlarını bildiriblər.

# Aiseldən "Avroviziya"ya yenidən getməsi iddialarına cavab

***Müğənni Aiselin (Aysel Məmmədova) yenidən "Avroviziya"ya getmək üçün müraciət etdiyi iddia olunub.***



Axşam.az xəbər verir ki, sənətçi bununla bağlı sualları cavablandırıb. O bildirib ki, belə bir müraciət etməyib: "Dostlarım və izləyicilər, bildirmək istəyirəm ki, "Avroviziya" müsabiqəsinə müraciət etməmişəm. Müraciət etməyi də planlaşdırmıram. "Avroviziya" fanatlarına dəstəkləri və xoş sözlərinə görə təşəkkür edirəm. Gördüyünüz kimi, mən müsabiqələrdən asılı olmayaraq, öz yaradıcılığımla məşğulam, diqqətimi tam olaraq yeni layihələrimə yönəltmişəm".

Qeyd edək ki, Aisel 2018-ci ildə müsabiqədə ölkəmizi "X My Heart" mahnısı ilə təmsil edib.

# Tolikə yüksək vəzifə verildi

***Speys TV-də bu həftənin cümə günündən verilişi bağlanacaq Tarix Əliyevin harada çalışacağı bəlli olub.***

Bu barədə jurnalist Ülviyyə Alovlu məlumat yayıb. O, bildirib ki, Tarix Əliyev Speys TV-dən ayrılmır, əksinə, ona bu kanalda yüksək vəzifə verilir. Kanalın rəhbəri Vado Karovinin təşəbbüsü ilə o, Speys TV-nin Musiqi Departamentinin rəhbəri təyin olunacaq. Karovinin bu addımına səbəb Tolikin sponsorlarını saxlamaqdır. Məlumata görə, Tolikin verilişinin 11 sponsoru var.

Tarix Əliyev əvvəlki verilişinin, başqa ad və başqa aparıcı ilə efirə qayıdacaq proqramın layihə rəhbəri olaraq qalacaq. Başqa sözlə, mahiyyət dəyişmir, Tarix Əliyev isə əvvəl bir verilişə sahiblik edirdisə, indi bütövlükdə Musiqi Departamentinə və bu tip verilişlərə cavabdeh olacaq.



# TƏBİB Səhiyyə Nazirliyinə birləşdirilə bilər?

***"Hazırda Səhiyyə Nazirliyində islahatlar aparılır".***

"Unikal" xəbər verir ki, bunu səhiyyə naziri Teymur Musayev bu gün jurnalistlərə açıqlamasında deyib.

"TƏBİB Səhiyyə Nazirliyinə birləşdirilə bilərmi?"sualına isə nazir cavab verməyib. O bu suallara TƏBİB Müşahidə Şurasının cavab verə biləcəyini bildirib.

T.Musayev həmçinin hazırda fəaliyyətinə icazə verilən plastik cərrahlarla bağlı məsələyə də münasibət bildirib. Qeyd edib ki, plastik və estetik əməliyyat üçün icazəsi olan cərrahların sayı 45 nəfərdir. Nazirin sözlərinə görə, bu sahədə vəziyyət düzəlib, icazəli cərrahların sayı ilbəil arta bilər.

## "Peşəkar kadrların yetişdirilməsi mürəkkəb prosesdir" - Əhliman Əmiraslanov



***Akademiyanın Biologiya və Tibb Elmləri Bölməsini əhatə edən institutlarda 2025-ci ildə biologiya, tibb, aqrar və ekologiya elmləri üzrə böyük elmi və praktik əhəmiyyət daşıyan tədqiqat nəticələri əldə olunub.***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin Səhiyyə komitəsinin sədri akademik Əhliman Əmiraslanov Azərbaycan Milli Elmlər Akademiyasının illik Ümumi yığıncağında çıxışı zamanı söyləyib. O, Azərbaycan Prezidentinin ölkədə səhiyyənin inkişafına böyük diqqət ayırdığını vurğulayıb. Bildirib ki, 2025-ci ilin payızında ilk dəfə meyit donordan ürək köçürülməsi əməliyyatının həyata keçirilməsi Azərbaycan səhiyyəsi və elmi üçün tarixi hadisədir. Alim bu əməliyyatların sayının artmasının gələcəkdə həmin istiqamətdə fundamental və tətbiqi elmi tədqiqatların genişlənməsinə imkan yaradacağına əminliyini ifadə edib.

Səhiyyə komitəsinin sədri, həmçinin dövlətimizin başçısının dəstəyi və Milli Onkologiya Mərkəzinin baş direktoru akademik Cəmil Əliyevin təşəbbüsü ilə Azərbaycanda Nüvə Təbabəti Mərkəzinin yaradılmasının xərçəng xəstəliklərinin erkən diaqnostikasında mühüm rol oynadığını bildirib.

O, çıxışında minimal invaziv cərrahiyyə, reproduktiv təbabətdə yüksək texnologiyalar və kök hüceyrə tətbiqləri, robotik-cərrahi üsullar, eləcə də uşaqlarda bronxial-astma üzrə müasir yanaşmalar barədə məlumat verib.

Akademik qeyd edib ki, hesabat dövründə Biologiya və Tibb Elmləri Bölməsinə daxil olan elmi müəssisələr tərəfindən yüksək indeksli jurnallarda ümumilikdə 725 elmi məqalə dərc olunub. Onlardan "Web of Science" və "Scopus" bazalarına daxil olan jurnallarda çap edilən 457 məqalə tibbyönümlü elmi-tədqiqat və təhsil müəssisələrinin payına düşüb. Bu, Azərbaycan elminin beynəlxalq miqyasda mövqeyini əks etdirən mühüm göstəricilərdir və "elmin güzgüsü" hesab edilə bilər.

Alim ölkəmizdə elmi məktəblərin mövcud olduğunu da söyləyib. Qeyd edib ki, elmi məktəbin yaradılması və onun ənənələrini davam etdirəcək peşəkar kadrların yetişdirilməsi mürəkkəb və uzunmüddətli prosesdir. Bu baxımdan, istər AMEA, istərsə də Elm və Təhsil Nazirliyi tərəfindən ölkəmizdə mövcud elmi məktəblərə xüsusi diqqət yetirilməli, onların davamlılığı və elmi ardıcıllığı qorunmalıdır.

# Sahil Babayev iri məmurları silkələməyə başlayır

## Genişmiqyaslı yoxlamaların anonsu verildi - Hansı vəzifəlilər təlaşdadır?

***Azərbaycan Prezidentinin 2025-ci il 29 dekabr tarixli 570 nömrəli Fərmanına əsasən Maliyyə Nazirliyi yanında Dövlət Müəssisələrinin Monitorinqi Agentliyi cari ilin aprel ayından başlayaraq dövlət şirkətlərinin və publik hüquqi şəxslərin büdcə layihələri və proqnozlarının, həmçinin büdcələrinin monitorinqini həyata keçirəcək və icra göstəricilərini təhlil edəcək. Bu barədə qurumdan məlumat verilib.***

Bildirilib ki, bu məqsədlə Maliyyə Nazirliyinin kollegiya qərarı ilə dövlət şirkətlərinin və publik hüquqi şəxslərin nazirliyə təqdim edəcəkləri məlumat və hesabatların formaları təsdiq edilib. Dövlət şirkətləri və publik hüquqi şəxslər həmin formalar əsasında Dövlət Müəssisələrinin Monitorinqi Agentliyinə büdcə göstəricilərini, aylıq, rüblük maliyyə hesabatlarını və illik proqnoz məlumatlarını təqdim etməlidirlər.



Təqdim olunan sənədlərin monitorinqi zamanı dövlət müəssisələrinin büdcə parametrləri ilə icra vəziyyəti, ayrı-ayrılıqda fəaliyyət sahələri və tabe olduqları qurumlar üzrə maliyyə məlumatları, xərclərinin funksiya və xarakterinə görə göstəriciləri yoxlanılacaq. Eyni zamanda, beynəlxalq maliyyə təşkilatlarının qabaqcıl qiymətləndirmə alətləri vasitəsilə dövlət müəssisələri üzrə səmərəlilik göstəriciləri, aşkarlanmış fiskal risklərin digər müəssisələrə və dövlət maliyyəsinə, o cümlədən dövlət büdcəsi, büdcədənkənar dövlət fondları və dövlət borcuna mümkün təsirləri təhlil olunacaq.

Maliyyə Nazirliyi həmin monitorinq və təhlillərin nəticələri barədə rübdə bir dəfə olmaqla dövlət başçısına hesabat verəcək.

Bununla da dövlət müəssisələrində mənfəətliliyinin artırılması, uçot və hesabatlılığın təkmilləşdirilməsi, dövlət büdcəsi resurslarından asılılığın azaldılması, habelə orta və uzunmüddətli dövrdə dövlət büdcəsi və büdcədənkənar dövlət fondları qarşısında yarana biləcək öhdəliklərin öncədən müəyyən olunması təmin ediləcək.

Sözügedən Kollegiya qərarının mətni və təsdiq edilmiş formaların "Excel" formatda elektron variantı Nazirliyin rəsmi internet səhifəsinə yerləşdirilib.

Qeyd edək ki, Azərbaycanda dövlət şirkətləri və publik hüquqi şəxslərin effektiv fəaliyyəti bir müddətdir mübahisə mövzusudur. Belə ki, bir sıra dövlət şirkətləri zərərlə işlədiyindən ya onların yenidən formalaşdırılması (məsələn, hansısa nazirliyə birləşdirilməsi), ya da özəlləşdirilməsi təklif olunur. Hələ iki il öncə iqtisadçı Natiq Cəfərli dövlət şirkətlərinin özəlləşdirilməsi istiqamətində addımın atılmamasını tənqid etmişdi. O bildirmişdi ki, büdcə üzərində yük olan elə şirkətlər var ki, onların mülkiyyətinin dövlətdə qalması şərtilə uzunmüddətli özəl sektora icarəyə verilməsi mümkün idi. Təəssüf ki, bu yöndə heç bir addım atılmır.

Ekspertlər vurğulayır ki, dövlət şirkətlərinin xərc hissəsinə nəzarət zəif olduğu üçün onların çoxu zərərlə işləyir. Bu zərər satışdan və yaxud onların gəlirlərindən asılı məsələ deyil. Hansısa bir şirkətin fəaliyyət balansını çıxararkən gəlir və xərcləri hesablanır. Xərclər çox olanda zərərlə işləyir. Həmin şirkətlərin böyük əksəriyyəti xərcləri şişirdirlər. Məsələn, təmir, yaxud da hansısa avadanlığın alınması adı altında müxtəlif xərclər bazar dəyərindən yüksək hesablanır, nəticə etibarilə gəlir itirilir və şirkət zərərlə işləməyə başlayır. Bir sözlə, xərclər - dövlət şirkətlərinin əsas problem, eləcə də onlarda yeyinti ehtimalını qüvvətləndirən amildir. Ekspertlərin fikrincə, bu müəssisələrdə xərclərə, tenderlərə nəzarət gücləndirilmədikcə, onların zərərlə işləmə praktikasına son qoyulmayacaq. Həmin dövlət şirkətlərinin başında oturanların ailə biznesi çiçəkləndiyi, şəxsi varidatı aşıb-daşdığı halda, sözügedən qurumlar zərər və borc içində itib-batmağa davam edəcək. Elə ona görə də Maliyyə Nazirliyinin anons etdiyi yoxlamalar, sözügedən yoxlamaların rübdə bir dəfə ölkə başçısına məruzə edilməsi dövlət şirkətləri ilə bağlı illərdir müşahidə olunan xaotik duruma son qoyulması istiqamətində həlledici addım ola bilər.

Digər tərəfdən, son vaxtlar Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) ətrafında baş verənlər, bu qurumun vəzifəsindən azad edilən keçmiş rəhbəri ilə bağlı ciddi ittihamlar, korrupsiya iddiaları publik hüquqi şəxslər üzərində də nəzarətin gücləndirilməsinin vacibliyini aktuallaşdırır. Aydın görünür ki, ölkədə həyata keçirilən struktur islahatlarının mühüm parçası olan publik hüquqi şəxslərdə də köhnə məmur korpusunun yolu ilə gedən, "köhnə hamam, köhnə tas" prinsipi ilə işləməyə üstünlük verən rəhbərlər iş başındadır. Bu isə haqqında danışdığımız struktur islahatlarının effektivliyini, səmərəliliyini zəifləndir. Odur ki, sözügedən qurumlarda da ciddi təftişin aparılmasına əşhədü-ehtiyac var.

Ekspertlərin fikrincə, Sahil Babayevin rəhbərlik etdiyi Maliyyə Nazirliyinin anons etdiyi yoxlamalar obyektiv aparılacağı təqdirdə bir sıra yüksək post sahiblərinin çoxsaylı qanunsuz əməlləri ortaya çıxacaq. Nəticədə ölkədə məmur həbslərinin yeni dalğası qaçılmaza çevriləcək, ən azı, bir çox post sahibləri oturduqları və daha çox şəxsi sərvət sahibi olmaq üçün istifadə etdikləri kreslolarını itirəcəklər.

***Sənan Mirzə***

08_27 IYUI-QARA.qxd 2/26/2026 10:30 PM Page 4



# Vaşinqtondakı təxribat Azərbaycanı və liderini haqlı yolundan çəkindirə bilməyəcək

***Xəbər verdiyimiz kimi, 19 fevral 2026-cı il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sülh Şurasının ilk iclasında iştirak məqsədilə Amerika Birləşmiş Ştatlarına səfəri zamanı bir qrup etirazçı Vaşinqton şəhərində yerləşən "Waldorf Astoria" mehmanxanasının qarşısında təxribatçı hərəkətlər törədib.***

"Unikal" xəbər verir ki, nə zaman ki, regionda Azərbaycanın geosiyasi gücü artıb, dövlətimiz beynəlxalq arenada strateji əhəmiyyətini yüksəldib, eləcə də milli maraqlarımızın təmini üçün addımlar atırıq, analoji proseslər başlayır. Əsasən də ölkəmizə və dövlətimizin başçısına və ailə üzvlərinə qarşı qara piar və açıq təxribat cəhdlərinin kəskin şəkildə artığını görmüşük. Əslində, bu, yeni tendensiya deyil. İndiyə kimi belə çirkli ssenarilərə, sifarişli təxribatlara rast gəlinib. Təbii ki, bu kimi təxribatlar,



informasiya hücumları zaman-zaman fərqli mərkəzlərdən idarə olunub. Bəzən Qərb dairələrindən, bəzən də Rusiyanın müəyyən mərkəzlərindən ölkəmizə və onun liderinə qarşı siyasi, diplomatik ənənələrə uyğun gəlməyən, qərəzli və böhtan dolu hücumlar olub.

### Təxribata qarşı adekvat təhlükəsizlik tədbiri...

Bununla bağlı rəsmi bəyanat yayan Azərbaycanın Amerika Birləşmiş Ştatlarındakı (ABŞ) səfirliyindən bildirildi ki, Prezident korteji mehmanxana ərazisinə yaxınlaşarkən etirazçılar mühafizə olunan əraziyə zorla daxil olmağa cəhd edərək Prezidentin avtomobilinə yönəlik hücum aktları həyata keçiriblər. Bu qrup, həmçinin Azərbaycan rəhbərliyinə qarşı nalayiq ifadələr işlədib. Dövlət başçısının mühafizə olunan nəqliyyat vasitəsinin hərəkətinə maneçilik törədilməsinin və ya fiziki müdaxilə olunmasının ciddi təhlükəsizlik təhdidi yaratdığı nəzərə alınaraq, Prezidentin Təhlükəsizlik Xidmətinin dərhal müdaxilə etməkdən başqa seçimi qalmayıb. Təhlükəsizlik tədbirləri, standart əməliyyat prosedurlarına uyğun olaraq, yalnız təhlükəsizlik və mühafizənin təmin olunmasına yönəlib.

### Erməni lobbisi ilə işbirliyi...

Maraqlı detallardan biri də odur ki,Vaşinqtonda fəaliyyət göstərən antimilli ünsürlər ABŞ-dakı şovinist erməni dairələrinin əlaltısı kimi çıxış edir, onların sifarişləri əsasında hərəkət edirlər. Təsadüfi deyil ki, bu qrupun aqressiv və qeyri-etik aksiyasına ilk reaksiya və dəstək ermənilərin ANCA təşkilatı tərəfindən verilib. Amerika Erməniləri Milli Komitəsindən (ANCA) sonra dərhal münasibət bildirənlərdən biri də Azərbaycana qarşı mövqeyi ilə tanınan Frenk Pallone olub. Senator Frenk Pallonenin erməni lobbisi ilə sıx əlaqələrinin olduğu, erməni dairələri tərəfindən dəstəkləndiyi və uzun illər Azərbaycan əleyhinə mövqe sərgilədiyi məlumdur.O da məlum olub ki, aksiyada radikal hərəkətləri ilə diqqət çəkən 02.08.1990-cı il təvəllüdlü Əmrahlı Adil Vüqar oğlu Rusiya Federasiyasının vətəndaşıdır.

Aksiyanın ən fəallarından olan 06.04.1998-ci il təvəllüdlü Yaqublu Rəhim Tofiq oğlu Müsavat partiyasının üzvüdür.Tofiq Yaqublunun oğlu olan Rəhim Yaqublu sonuncu dəfə 20.03.2022-ci il tarixdə Azərbaycanı tərk edərək, Türkiyəyə gedib. Hazırda ABŞ-də yaşayır. Rəhim Yaqublu Azərbaycanda olduğu müddətdə dəfələrlə Rusiya Federasiyasına gedib qayıdıb. 12.07.2018-ci il tarixdə Rusiyaya gedib, 13.08.2018-ci il tarixdə ölkəyə qayıdıb. Onun 8 dəfə Rusiyaya getdiyi barədə məlumatlar var.

Radikal aksiyanın daha bir iştirakçısı, 30.04.1972-ci il təvəllüdlü Abbasov Bəxtiyar Əlövsət oğlu da Rusiya Federasiyasının vətəndaşıdır. Ölkədə olarkən tez-tez Rusiyaya səfərlər edib. Onun təxminən 16 dəfə Rusiyaya gedib-gəldiyi məlumdur. Sonuncu dəfə 12.05.2015-ci il tarixdə Rusiya Federasiyasına məxsus pasportla Azərbaycandan Rusiyaya gedib, uzun müddət orada yaşayıb. AXCP üzvü olub.

### Təxribatda Rusiya izi...

Azərbaycanın ABŞ-la daha da yaxınlaşması, Ermənistanla sülh prosesinin rəsmiləşməsinin məhz Vaşinqtonda olması, Prezident İlham Əliyevin oradan verdiyi mesajlar sözsüz ki,



Kremli narahat etməyə bilməzdi. Bu səbəbdən də Rusiyadan Azərbaycana və onun liderinə qarşı hər hansı bir formada hücumların təşkil olunması gözlənilən idi. Yəni, Vaşinqtondakı insident təsadüfi aksiya deyildi, əvvəlcədən düşünülmüş, hesablanmış və sifarişli təxribat idi.

Məlumatlara görə, adı çəkilən şəxs Rusiyanın xüsusi xidmət orqanları ilə əməkdaşlığa cəlb edilib. Rusiyadan AXCP-yə qanunsuz maliyyə vəsaitləri göndərən Saleh Rüstəmovun yaxını olub, uzun müddət pul toplanılmasında onunla birgə iştirak edib. Saleh Rüstəmovun həbsindən sonra elə agentlik etdiyi xüsusi xidmət orqanlarının təlimatına əsasən maskalanıb, Amerikaya göndərilərək orada yerləşdirilib, hazırda ABŞ-də yaşayır.

Aksiyanın daha bir iştirakçısı, 10.10.1995-ci il təvəllüdlü İsayev Xilas Osman oğlu da AXCP üzvüdür. Sonuncu dəfə 27.03.2024-cü il tarixdə Azərbaycandan Türkiyəyə gedib. Hazırda ABŞ-də yaşayır.

Aksiyanın digər iştirakçısı 28.08.1981-ci il təvəllüdlü Ələkbərli Tural Rza oğlu da Azərbaycanda yaşayan vaxt dəfələrlə Rusiyaya səfər edib. Onun 54 dəfə Rusiyaya getdiyi barədə məlumatlar var. Sonuncu dəfə 16.10.2018-ci il tarixdə Azərbaycanı tərk edərək, Rusiyaya gedib. Hazırda ABŞ-də yaşayır.

### Azərbaycan xalqı liderinin arxasındadır...

Göründüyü kimi, Azərbaycana və onun liderinə qarşı planlaşdırılan təxribat aksiyasının iştirakçılarının Rusiya ilə sıx əlaqələri mövcuddur. Bu aksiyanın baş verdiyi ərəfədə hansı proseslərin getdiyinə nəzər yetirək. Azərbaycan "Sülh Şurası"nın təsisçi üzvlərindən bi-




ri kimi çıxış edir. Bununla Cənubi Qafqazın geosiyasi xəritəsinin, sülh və əməkdaşlıq strategiyasının yenidən formalaşması prosesində əsas fiqur kimi ortaya çıxır. Bundan əlavə, Azərbaycan ABŞ ilə Strateji Tərəfdaşlıq Xartiyasını imzalayıb. Dövlət başçımız sülh qurucusu kimi beynəlxalq səviyyədə mükafatlandırıldı. Bütün bu proseslər Rusiyanın nəzər diqqətindən kənarda baş verdi. Təbii ki, Rusiyadakı müəyyən dairələr bunu sakit şəkildə qəbul etməyəcəkdi.

Ancaq Azərbaycan xalqı bu cür təxribatların, siyasi şouların fərqindədir. Yəni, istər Rusiyadakı, istər Avropadakı müəyyən dairələrin Azərbaycana qarşı həyata keçirdikləri siyasəti, ölkə rəhbərinin uğurlu gedişlərini həzm etmədiklərinə görə ona və ailəsinə qarşı qara piar kampaniyaları təşkil etmələri qəbul olunmur. Hər kəs bütün bunların bir oyun olduğunu, Azərbaycanın milli maraqlarını hər şeyin fövqündə tutan İlham Əliyevi yolundan döndərə bilməyəcəyini anlayır. Azərbaycan xalqı 44 günlük Vətən Müharibəsində olduğu kimi, sülhə nail olunması, dövlətimizin regional güc mərkəzinə çevrilməsi prosesində də liderinin arxasında dayanmağa və onu bütün hücumlardan, təxribatlardan qorumağa hazırdır.

***Unikal.az Media Qrup***



## "Bəzi dairələr Azərbaycanın artan nüfuzundan ciddi narahatdır" - Deputat

***"Azərbaycan hər zaman beynəlxalq müstəvidə sülh və sabitliyə fəal töhfə verməyə hazırdır. Dövlətimizin Sülh Şurasına üzv olması Azərbaycanın beynəlxalq nüfuzunun və artan strateji çəkisinin açıq ifadəsidir. Bu addım Azərbaycanın artıq yalnız regional təşəbbüslərlə kifayətlənmədiyini, qlobal sülhün tənzimlənməsində söz sahibi olan ölkələr sırasında yer aldığını təsdiqləyir".***

Bunu "Unikal"a açıqlamasında Milli Məclisin deputatı Samir Vəliyev deyib.

Deputat bildirib ki, Azərbaycanın beynəlxalq miqyasda artan nüfuzunu həzm edə bilməyən dairələr uğurlarımızdan ciddi "narahatdır". "Sapı özümüzdən olan baltalar" anti-Azərbaycan mərkəzlərinin, erməni lobbisinin əlində alət olaraq həmin dairələrin göstərişlərini icra edirlər. Prezident İlham Əliyev Vaşinqtonda olarkən onların hotelin qarşısındakı təxribat cəhdləri də bunu göstərir. Müasir dünyada ifadə azadlığı və etiraz hüququ sivil normallarla tənzimlənsə də, Vaşinqtonda şahidi olduğumuz mənzərə göstərir ki, müəyyən dairələr bu anlayışlardan öz çirkin məqsədləri üçün sui-istifadə edirlər. Eyni zamanda, bu, planlı şəkildə hazırlanmış, Azərbaycan dövlətinə, onun rəhbərliyinə və ümumilikdə xalqımıza qarşı nifrət üzərində qurulmuş bir təxribatdır. Bu, siyasi mübarizə deyil, milli hisslərini itirmiş bir qrupun nümayiş etdirdiyi mənəvi aşınmadır.

Millət vəkilinin sözlərinə görə, sosial şəbəkələrdə yayılan görüntülər göstərir ki, məqsəd sadəcə etiraz aksiyası keçirmək deyil, həm də ölkə rəhbərinin təhlükəsizliyi və dövlətimizin nüfuzu ətrafında süni gərginlik yaratmaq olub. Dövlət başçısına yönələn istənilən təxribat faktiki olaraq Azərbaycana qarşı atılmış addım kimi qiymətləndirilməlidir. Prezident ölkəni beynəlxalq arenada təmsil edir və onun fəaliyyətinə, təhlükəsizliyinə qarşı hər hansı aqressiv davranış dövlətin suverenliyinə və nüfuzuna yönəlmiş cəhd kimi dəyərləndirilir. Bu baxımdan, belə hadisələr daha geniş kontekstdə aparılan qarayaxma kampaniyalarının elementidir. Təxribatın qarşısının alınmasında isə təhlükəsizlik xidmətinin əməkdaşlarının və ABŞ polisinin peşəkarlığı da xüsusi vurğulanmalıdır.

"Bu təxribatçı qrupun Amerika ermənilərinin təşkilatı olan ANCA tərəfindən də təlimatlandırıldığı istisna deyil. Çünki onlar maliyyə aldıqları mərkəzlərin tapşırıqlarını yetirirlər. Lakin bu dairələr unutmamalıdır ki, Azərbaycan güclü dövlətdir və bu cür cılız davranışlarla heç nəyə nail ola bilməyəcəklər. Bunu indiyədək olan təcrübə də təsdiqləyir",- deyə Samir Vəliyev vurğulayıb.

08_27 IYUl-QARA.qxd 2/26/2026 10:31 PM Page 5



# İlham Əliyev Ərdoğana zəng etdi




***Azərbaycan Prezidenti İlham Əliyev fevralın 26-da Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edib.***

"Unikal" xəbər verir ki, bu barədə Prezidentin Mətbuat Xidməti məlumat yayıb.

Bildirilib ki, dövlət başçısı Rəcəb Tayyib Ərdoğanı ad günü münasibətilə təbrik edib, ona uzun ömür, cansağlığı və gələcək fəaliyyətində uğurlar arzulayıb. Türkiyə Prezidenti göstərilən diqqətə və təbrikə görə təşəkkürünü bildirib.

Telefon danışığı əsnasında dövlət başçıları gələcək təmaslara dair fikir mübadiləsi aparıblar.

# Dövlət rəsmiləri Xocalı soyqırımı abidəsini ziyarət etdilər



***Xocalı faciəsinin 34-cü ildönümü ilə əlaqədar fevralın 26-da Baş nazir Əli Əsədov, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev, Milli Məclisin sədri Sahibə Qafarova, digər dövlət və hökumət rəsmiləri Xocalı soyqırımı abidəsini ziyarət ediblər.***

"Unikal" xəbər verir ki, dövlət və hökumət rəsmiləri soyqırımı abidəsinin önünə gül dəstələri düzərək, faciə qurbanlarının əziz xatirələrini ehtiramla anıblar.

# Aİ səfiri Xocalı soyqırımı qurbanlarının xatirəsini yad edib

***Avropa İttifaqının Azərbaycandakı səfiri Mariyana Kuyundziç Xocalı soyqırımı qurbanlarının xatirəsini yad edib.***



O, bu barədə sosial şəbəkə hesabında bildirib.

"Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyi Xocalı faciəsi zamanı həyatını itirən günahsız qadınların, kişilərin, uşaqların və qocaların xatirəsini ehtiramla yad edir. Nümayəndəlik dərin hüznlə başsağlığı verir və barışığın, davamlı sülhün əhəmiyyətini vurğulayır", - diplomat qeyd edib.

# Milli Məclis beynəlxalq təşkilatlara müraciət ünvanladı

***Milli Məclis tərəfindən Xocalı soyqırımının 34-cü ildönümü ilə əlaqədar xarici ölkələrin parlamentlərarası əlaqələr üzrə işçi qruplarına, parlamentlərin beynəlxalq komitələrinə və beynəlxalq parlament təşkilatlarına müraciətlər ünvanlanıb.***




"Unikal" xəbər verir ki, müraciətlərdə Azərbaycan xalqının bu il Ermənistanın Azərbaycan ərazilərini işğalı zamanı törətdiyi Xocalı soyqırımının 34-cü ildönümünü dərin hüznlə yad etdiyi qeyd olunaraq, Xocalı qəsəbəsinin dinc sakinlərinə qarşı törədilmiş bu amansız qətliamın XX əsrdə bəşəriyyətə qarşı həyata keçirilmiş ən ağır və dəhşətli cinayətlərdən biri kimi tarixə düşdüyü vurğulanır.

Bildirilir ki, bu soyqırım zamanı etnik mənsubiyyətlərinə görə 63-ü uşaq, 106-sı qadın və 70-i qoca olmaqla, 613 mülki şəxs qəddarcasına qətlə yetirilib. 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq isə bir valideynini itirib. Qurbanlara qarşı misilsiz qəddarlıqlar törədilib. Meyitlər təhqir edilib, bəzi qurbanlar diri-diri yandırılıb.

Müraciətlərdə deyilir ki, Xocalı soyqırımı beynəlxalq humanitar hüququn, insan hüquqlarının, habelə Soyqırım cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiyanın, İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və cəza əleyhinə qarşı Konvensiyanın, İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiyanın kobud şəkildə pozulmasıdır.

Qeyd olunur ki, 2020-ci ilin 44 günlük Vətən müharibəsi və 2023-cü ilin lokal antiterror tədbirləri nəticəsində ərazi bütövlüyümüzün və suverenliyimizin bərpası dövlətimizin və xalqımızın birlik və həmrəyliyini təcəssüm etdirir. Bu gün Xocalı da daxil olmaqla bütün azad edilmiş ərazilərə həyat yenidən qayıdıb. Öz doğma torpaqlarında sülh və təhlükəsizlik şəraitində yaşayan xalqımız Xocalı soyqırımı qurbanlarının xatirəsini əbədi yaşadacaq.

Həmçinin, məhz Azərbaycanın cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə Ermənistanla sülh prosesinin başlanması və irəlilədilməsi istiqamətində ilk təşəbbüsü irəli sürdüyü, bu prosesin ötən ilin avqustunda ABŞ-ın Vaşinqton şəhərində "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş"in paraflanması ilə nəticələndiyi də diqqətə çatdırılır.

Bildirilir ki, bu gün iki ölkə arasında formalaşmış faktiki sülh mühiti Azərbaycanın Ermənistana yük daşınmasına tətbiq etdiyi bütün məhdudiyyətləri aradan qaldırması, neft məhsullarının ixracını təmin etməsi, eləcə də parlament üzvləri və vətəndaş cəmiyyəti nümayəndələri arasında qarşılıqlı dialoq və təmasların genişləndirilməsi kimi bir sıra etimad quruculuğu tədbirləri ilə daha da möhkəmləndirilir.

Müraciətlərdə beynəlxalq əməkdaşlığın, xüsusən də parlamentlərarası dialoqun gücünü nəzərə alaraq, Xocalı soyqırımı barədə məlumatlılığın artırılması və onun beynəlxalq səviyyədə tanınması, eləcə də təqsirkarların məsuliyyətə cəlb edilməsi istiqamətində səylərin davam etdirildiyi, bu faciənin anılmasının təkcə qurbanların xatirəsini yad etmək deyil, həm də gələcəkdə bəşəriyyətə qarşı bu cür cinayətlərin qarşısının alınmasına çağırış olduğu vurğulanır.

# Əli Əsədov İqtisadi Şuranın iclasını keçirdi

***İqtisadi Şuranın iclası keçirilib.***



"Unikal" xəbər verir ki, bu barədə Nazirlər Kabineti məlumat yayıb.

İqtisadi Şuranın sədri, Baş nazir Əli Əsədovun rəhbərliyi ilə keçirilən iclasın gündəliyində "Sahibkarlıq fəaliyyətinə maneə və çətinliklərin aradan qaldırılması və biznes mühitinin yaxşılaşdırılması islahatları üzrə İşçi Qrup"u tərəfindən hazırlanan "Məhkəmə və hüquq" sahəsinə və "Dövlət satınalma prosedurları" sahəsinə dair sahibkarların qaldırdığı aktual məsələlər ətraflı müzakirə olunub.

Gündəlikdə olan məsələlər üzrə Azərbaycan Prezidentinin köməkçisi, İşçi Qrupun rəhbəri Natiq Əmirovun və Ali Məhkəmənin İnzibati Kollegiyasının sədri Xəqani Məmmədovun məruzələri dinlənilib.

İclasda təqdim olunan məsələlərə dair İqtisadi Şuranın üzvləri və dəvət olunanlar Ali Məhkəmənin sədri İnam Kərimov, ədliyyə naziri Fərid Əhmədov, Azərbaycan Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin sədri Elnur Bağırov çıxış ediblər.

Yekunda iclas iştirakçılarının rəy və təklifləri nəzərə alınmaqla müzakirə olunan məsələlərin həlli istiqamətində müvafiq normativ-hüquqi aktların layihələrinə dəyişikliklər hazırlayaraq hökumətə təqdim olunması barədə qərarlar qəbul olunub və aidiyyəti qurumlara tapşırıqlar verilib.

# "Qardaşımın əziyyəti itmədi" - Natiq Qasımovun bacısı

***Milli Qəhrəman Natiq Qasımovun bacısı qardaşının əməyinin itmədiyini bildirib.***

"Unikal" xəbər verir ki, Natiq Qasımovun bacısı Kəmalə Heydərova Prezident İlham Əliyevin Xocalı Soyqırımı Memorial Kompleksinin açılışı çərçivəsində Xocalı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə Xocalı torpağına qayıtdığı zaman hisslərin ifadə etməyin mümkün olmadığını vurğulayıb:

"Çünki bu torpaqda mənim qardaşım Natiq Qasımov döyüşüb. O, Rusiyada hərbi xidmətdə olanda erməni vəhşiləri burada azərbaycanlılara zülm edirdilər. O, əsgərlikdən gələndən sonra dayanmadı, gəldi Xocalıya. Onun qəhrəmanlığı haqqında heç nə danışmayacağam, hamı bilir. Mən Sizə çox təşəkkür edirəm, əziz Prezidentimiz, mənim qardaşıma çox dəyər verdiniz. Ən gözəl adı - "Milli Qəhrəman" adını verdiniz. Onda anam sağ idi. İnanın ki, biz heç bilmirdik, qonşu zəng elədi ki, Natiqə "Milli Qəhrəman" adı verilib. Onun əməyi itmədi. Biz sevinirik ki, belə qəhrəmanlarımızın sayı çoxdur, şükürlər olsun. Heç bir dövlətdə, ölkədə elə bir şey yoxdur ki, 44 günlük müharibədə qalib olsun. Bu, Sizin şücaətiniz sayəsində, şəhidlərimiz, qazilərimiz, veteranlarımız sayəsində oldu".

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Son dəqiqə" MMC mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

## ELAN

**Həsənli Süleyman Nemət oğluna Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi tərəfindən verilən "Şəhid ailəsi üzvünün vəsiqəsi" (№ 007961) itdiyi üçün etibarsız sayılır.**

**************

**Həsənli Aycan Nemət qızına Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi tərəfindən verilən "Şəhid ailəsi üzvünün vəsiqəsi" (№ 007960) itdiyi üçün etibarsız sayılır.**

08_27 IYUI-QARA.qxd 2/26/2026 10:31 PM Page 6



# Prezident və xanımı Xocalı Soyqırımı Memorialının açılışında iştirak ediblər

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri fevralın 26-da Xocalı şəhərində Xocalı Soyqırımı Memorialının açılışında iştirak ediblər.***

"Unikal" xəbər verir ki, Prezident İlham Əliyev Memorialın önünə əklil qoydu. Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına və birinci xanıma Memorial barədə məlumat verdi.

Sonra Prezident İlham Əliyev Memorialın xatirə kitabına ürək sözlərini yazdı.

Daha sonra dövlətimizin başçısı, birinci xanım və ailə üzvləri Memorialla tanış oldular və Xocalı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdülər.

Dövlətimizin başçısı görüşdə çıxış edib.

Prezident İlham Əliyevin çıxışı: "İki il bundan əvvəl Xocalı Soyqırımı Memorial Kompleksinin təməli mənim iştirakımla qoyulmuşdur. Bu gün isə bu Memorial Kompleksin açılışına toplaşmışıq.

Xocalı soyqırımı Ermənistan dövləti tərəfindən, erməni faşistləri tərəfindən azərbaycanlılara qarşı, insanlığa qarşı, bəşəriyyətə qarşı törədilmiş qanlı hərbi cinayətdir. Bunun məsuliyyətini Ermənistan dövləti daşıyır. Bir gecə içində 600-dən çox günahsız mülki şəxs, onlardan 106-sı qadın, 63-ü uşaq erməni faşistləri tərəfindən qəddarcasına qətlə yetirilmişdir, 150 nəfər itkin düşmüş və aydın məsələdir ki, onlar da ermənilər tərəfindən öldürülmüşdür. Onların bəzilərinin işğaldan sonra qalıqları tapıldı və torpağa tapşırıldı.

Azərbaycan xalqı üçün bu, ən böyük faciədir. Bu faciəni dünya ictimaiyyətinə çatdırmaq üçün, bizim haqq işimizi dünya birliyinə təqdim etmək üçün həm Azərbaycan dövləti, həm ictimai təşkilatlar, qeyri-hökumət təşkilatları, demək olar ki, bir çox qurumlar fəal çalışıblar. Burada xüsusilə Heydər Əliyev Fondunun fəaliyyətini qeyd etmək istərdim. Fond yarandıqdan dərhal sonra "Xocalıya ədalət!" gənişmiqyaslı hərəkatına start verdi. Bu təşəbbüsü Fondun vitse-prezidenti Leyla Əliyeva həyata keçirdi. Son 20 il ərzində onun təşəbbüsü ilə dünyanın bir çox ölkələrində bir çox tədbirlər, təqdimatlar, simpoziumlar, konfranslar keçirilmişdir, bir çox kitablar, broşürlər, bukletlər dərc edilmişdir. Çünki Ermənistan dövləti, dünya erməniliyi və dünya erməniliyinin, Ermənistan dövlətinin arxasında duran dövlətlər bu qanlı faciəni ört-basdır etməyə çalışırdılar. Hətta erməni təbliğatçıları Azərbaycanı bu faciədə günahlandırmağa çalışırdılar. Əgər biz öz haqq səsimizi ucaltmasaydıq, bu gün bəlkə də dünyada Xocalı soyqırımı ilə bağlı həqiqətə uyğun məlumat olmayacaqdı. Məhz bizim təkidli səylərimiz nəticəsində artıq 20-yə yaxın ölkə Xocalı soyqırımını soyqırımı kimi rəsmən tanıyıb və bu proses davam etdirilir.

"Xocalıya ədalət!" hərəkatının təsiri böyük olmuşdur. Yenə də deyirəm, biz ədalət tələb edirdik. Ancaq əfsuslar olsun ki, beynəlxalq təşkilatlar, dünyanın aparıcı ölkələri bizim bu faciəmizə biganə yanaşırdılar. Yenə də bildirmək istəyirəm, Ermənistan dövlətinin törətdiyi bu qanlı cinayəti ört-basdır etməyə çalışırdılar. Biz isə ədalətə addım-addım irəliləyirdik. 20-yə yaxın ölkənin Xocalı soyqırımını rəsmən tanıması bir addım idi, Vətən müharibəsi və şanlı Zəfərimiz ikinci addım idi, Xocalı şəhərinin iki il yarım bundan əvvəl azad edilməsi isə son addımlardan biri idi. Nəhayət, axırıncı addım bu yaxınlarda hərbi cinayətkarlara qarşı Bakıda keçirilmiş məhkəmə prosesi idi. Xocalı soyqırımını törətmiş, əli Azərbaycan xalqının qanına batmış quldurlar məhkəmə qarşısında cavab verməli oldular.

İkinci Vətən müharibəsi və antiterror əməliyyatı nəticəsində



hərbi cinayətkarların bir hissəsi Azərbaycan Silahlı Qüvvələri tərəfindən məhv edilmişdir, bir hissəsi, xüsusilə separatçıların liderləri sayılan ünsürlər isə müxtəlif dövrlərdə saxlanılmış və məhkəmə qarşısına gətirilmişdir. Bax bu, ədalətin tam təntənəsidir. Ədaləti biz özümüz təmin etdik, xalqımız bir yumruq kimi birləşərək həm 2020-ci, həm 2023-cü illərdə böyük qəhrəmanlıq göstərmişdir. Biz ədaləti Silahlı Qüvvələrimizin peşəkarlığı, fədakarlığı, rəşadəti hesabına özümüz təmin etdik. Əlbəttə ki, hərbi cinayətkarları ədalət məhkəməsinə gətirmək və ədalətli məhkəməni təşkil etmək, yenə də deyirəm, bizim ədalətimizin son nöqtəsi idi.

Dünyada nadir halda ölkələr tapılar ki, həm ədalətli müharibədə tam və mütləq qələbə qazansın, həm öz ərazi bütövlüyünü və suverenliyini hər qarış torpağı azad edərək özü təmin etsin və müharibə cinayətkarlarını məhkəmə qarşısına gətirsin. Bunu biz etdik - Azərbaycan dövləti. Bizim iradəmiz, deyə bilərəm ki, əyilməz iradəmiz bunu təmin etdi. İşğal dövründə bizə nə qədər təzyiqlər olub, təhdidlər olub, bunu Azərbaycan ictimaiyyəti yaxşı bilir. İşğal dövründə bizə tez-tez belə siqnallar ünvanlanırdı ki, reallıqla barışmaq lazımdır, Azərbaycan öz torpaqlarını azad edə bilməyəcək, böyük dövlətlər, Ermənistanın havadarları buna imkan verməyəcək, Azərbaycan Ordusu döyüş meydanında qələbə qazana bilməyəcək. Bu kimi uydurulmuş şayiələr həm geniş informasiya məkanında yayılır, həm də müxtəlif kanallar vasitəsilə Azərbaycan rəhbərliyinə çatdırılırdı. Amma bizim iradəmizə təsir edə biləcək heç bir qüvvə yox idi və bunu biz dəfələrlə bəyan etmişdik. İşğal dövründə həm mötəbər beynəlxalq kürsülərdən, eyni zamanda, ovaxtkı köçkünlərlə keçirdiyim çoxsaylı görüşlər əsnasında bildirirdim ki, biz işğalla barışmayacağıq və məsələ danışıqlar yolu ilə həll olunmazsa, ərazi bütövlüyümüzü hərbi yolla bərpa edəcəyik və belə də oldu.

Birinci dəfə Prezident vəzifəsinə seçiləndən sonra andiçmə mərasimindəki çıxışımda da bildirmişdim ki, bu, bizim üçün əsas məsələdir və ərazi bütövlüyümüz tam bərpa edilməlidir. Hazırlıq dövrü çox çəkdi, bu da təbiidir. Çünki güc yığmalı idik, güc toplamalı idik. Öz haqq işimizi beynəlxalq müstəvidə təsdiqləməli idik, o cümlədən Ermənistan dövlətinin hərbi cinayətləri haqqında məlumatı çatdırmalı idik. Xocalı soyqırımı ilə bağlı həqiqətləri çatdırmalı idik və çatdırmışıq. Son illər ərzində bir çox beynəlxalq təşkilatlar məcburiyyət qarşısında bizim mövqeyimizi, ədalətli mövqeyimizi dəstəkləyən qərar və qətnamələr qəbul etmişdir. Bu, Ermənistan-Azərbaycan münaqişəsinin hüquqi əsasını təşkil etmişdir. Biz bir çox ölkələrlə sıx ikitərəfli münasibətlər, bir çox ölkələrlə strateji tərəfdaşlıq münasibətləri qurduq. Bu da beynəlxalq müstəvidə Azərbaycan həqiqətlərini, Qarabağ münaqişəsi həqiqətlərini çatdırmaq üçün imkan yaratmışdır. Heç kimdən asılı olmayan güclü iqtisadiyyat qurduq. Güclü ordu qurduq - həm Ordumuzun peşəkarlığını artırdıq, eyni zamanda, əldə edilən gəlirlər hesabına silah-sursat, texnika aldıq. Yəni hər gün, hər ay biz Qələbəyə doğru addımlayırdıq və mən bunu işğal dövründə dəfələrlə demişdim ki, hər gün biz Qələbəni yaxınlaşdırmalı idik və yaxınlaşdırdıq. Cəmi 44 gün ərzində düşməni məğlubiyyətə uğratdıq, düşmən təslim oldu, kapitulyasiya aktına imza atdı və biz müharibəni dayandırdıq. Bu gün son iki il yarımlıq tarix göstərir ki, bu, nə qədər düzgün və düşünülmüş addım idi. Düzdür, o vaxt Xocalı, Xankəndi və bəzi digər yaşayış məntəqələri işğaldan azad edilməmişdi, ancaq mən bilirdim və əminəm, Azərbaycan xalqı bilirdi ki, o gün uzaqda deyil. 2023-cü ildə cəmi bir neçə saat davam edən antiterror əməliyyatı nəticəsində qanunsuz xunta rejimi məhv edildi, işğalçılar torpaqlarımızdan qovuldu, torpaqlarımızda qanunsuz məskunlaşmış 15 minlik erməni ordusu tərk-silah edildi və təslim oldu. Bu da erməni separatçılığına, onların tabutuna vurulmuş son mismar idi. Xocalıya ədalət məhz o vaxt təmin edildi.

Bu gün bu Memorial Kompleksin açılışı, məhz Xocalıda açılışı ədalətin təntənəsidir. Çünki mən bunu iki il bundan əvvəl təməlqoyma mərasimində demişdim. Xocalılılarla birlikdə bu kompleksin təməlini qoyduq. O vaxt demişdim ki, Heydər Əliyev Fondu tərəfindən bu layihə çoxdan hazır idi, bax necə var, necə tikilib, elə də nəzərdə tutulmuşdu, Bakıda yer də seçilmişdi və artıq mənim son qərarım lazım idi ki, biz bunun inşasına başlayaq. Məni hər dəfə nə isə bundan çəkindirirdi. Sonra başa düşdüm o nə idi. O da inam idi ki, gün gələcək və bu Memorial Kompleksi biz Xocalıda quracağıq və belə də oldu. Bu Kompleks silinməz yaddaşımızın təcəssümü olacaq. Biz Xocalı soyqırımını heç vaxt unutmamalıyıq. Ermənistan dövlətinin vəhşiliklərini heç vaxt unutmamalıyıq. Öz tariximizi heç vaxt unutmamalıyıq, ayıq olmalıyıq, həmişə güclü olmalıyıq, həmişə düşmən bizdən qorxmalıdır, necə ki, bu gün qorxur. Məhz bu qorxu nəticəsində bu gün Azərbaycan xalqı sülh içində yaşayır.

Əfsuslar olsun ki, Vətən müharibəsi Ermənistan dövlətinə dərs olmadı. Halbuki 2020-ci ilin Zəfərindən sonra dəfələrlə müxtəlif yollarla Ermənistan rəhbərliyinə biz öz mövqeyimizi çatdırmışdıq - heç kimə güvənməsin, heç kimə bel bağlamasın. Xarici ölkələrin hərbçiləri bizim torpağımızda bizim icazəmizlə müvəqqəti olaraq yerləşiblər. Əgər kimsə hesab edir ki, bu bizi nədənsə çəkindirəcək, səhv edir. Dəfələrlə Ermənistan tərəfinə xəbər göndərmişdik ki, separatçılığa son qoyulsun, qanunsuz xunta rejimi fəaliyyətini dayandırsın, Qarabağ torpağında yaşayan ermənilər Azərbaycan vətəndaşlığını qəbul etsinlər. Bunu dəfələrlə bildirmişdik. Hətta internet vasitəsilə reinteqrasiya proqramını təqdim etmişik, amma biz adekvat cavab almamışıq. Əksinə, separatçılar və onların arxasında duran qüvvələr daha da azğınlaşmışdı. 2020-ci ilin Zəfərindən 2023-cü ilin antiterror əməliyyatına qədər buraya dəfələrlə xarici dövlətlərin nümayəndələri qanunsuz gəlmişdilər. Bugünkü mərasimdə o ölkələrin heç adlarını çəkmək istəmirəm. Separatçılara ürək-dirək vermək üçün, onları bizə qarşı yenə də təhrik etmək üçün, Azərbaycan dövlətini, dövlətçiliyini saymamaq üçün tövsiyələr verilirdi, silahlar göndərilirdi, minalar göndərilirdi. Hesab edirdilər ki, xarici dövlətin burada məskunlaşan kontingenti bizi nədənsə çəkindirəcək. Bizi heç nədən çəkindirə bilməzdi və bir neçə saat ərzində davam edən antiterror əməliyyatı bunu bütün dünyaya göstərdi. Bizim iradəmizə qarşı çıxanın başı əziləcək.

Bu gün bu Memorial Kompleksin açılışında Xocalı sakinləri iştirak edir. Onların demək olar ki, hər biri öz yaxınlarını, qohumlarını, doğmalarını itirmişlər, uzun illər ərzində bu ağrı ilə, bu kədərlə yaşamışlar. Öz yaxınlarını itirən, öz torpağını itirən, öz doğma diyarından didərgin salınan insanlarda gör nə qədər iradə olmalı idi ki, bütün bunlara dözə bilsinlər və dözdülər də. Çünki onları saxlayan inam idi, ədalətə inam, dövlətə inam, Ordumuza inam.

Bu gün bu Memorial Kompleksin timsalında biz Azərbaycan xalqının əyilməz ruhunu görürük. Çünki bu qədər, - yəni Xocalı soyqırımı XX əsrin ən qanlı cinayətlərindən biri idi və xalqımız buna məruz qalmışdı, - 30 il ərzində ədalətsizliklə üzləşən xalqımız öz mənliyini saxladı, ləyaqətini saxladı, inamını saxladı. Biz bu Memorial Kompleksin açılışında iştirak edərkən bir daha deyirik ki, bu gün Azərbaycan dövləti o qədər güclüdür ki, heç kimin ağlına bizə qarşı hər hansı bir təxribat törətmək gəlməsin. Artıq Azərbaycan 1992-ci ilin Azərbaycanı deyil. Bu gün dövlətimiz güclü dövlətdir, özünü müdafiə etməyə qadir olan dövlətdir. Son 80 il ərzində bizim qədər tam və mütləq qələbə qazanmış ikinci dövlət olmamışdır dünyada. Bu gün biz sülh içində yaşayırıq və bunun təminatçısı Azərbaycan dövlətidir, bizim siyasətimizdir.

Mən hələ Vətən müharibəsi dövründə bizim şəhərlərimiz, kəndlərimiz Ermənistan dövləti tərəfindən bombalananda demişdim ki, biz azərbaycanlıyıq, biz müharibəni də müharibənin qaydaları əsasında aparırıq və aparacağıq. Ermənilərdən fərqli olaraq günahsız, əliyalın mülki əhaliyə qarşı heç vaxt müharibə aparmamışıq və bu, bizim xalqımızı daha da ucaltdı. Bu gün xalqımıza, dövlətimizə olan hörmət, o cümlədən məhz buna görədir. O vaxt mən demişdim ki, biz qisasımızı döyüş meydanında alacağıq, aldıq da. Bütün şəhidlərin qisası alındı və bütün şəhidlərin doğmaları, yaxınları üçün bu, müəyyən təsellidir. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Biz onların xatirəsini qəlbimizdə əbədi yaşadacağıq. Biz heç vaxt nə Xocalı soyqırımını, nə Ermənistan dövlətinin bizə qarşı törətdiyi başqa hərbi cinayətləri unutmayacağıq. Hər zaman güclü olmalıyıq və olacağıq ki, belə faciələr bir daha təkrarlanmasın".

08_27 IYUI-QARA.qxd 2/26/2026 10:31 PM Page 7





# ABŞ-la İran arasında gərginlik hara qədər gedəcək? - Eskpert rəyi

***"Mərkəzi Kəşfiyyat İdarəsi, Dövlət Departamenti, Müharibə Departamenti (Pentaqon) və Milli Təhlükəsizlik Şurası ABŞ-nin qlobal gücünün formalaşmasında dörd əsas alət kimi çıxış edir. Lakin ABŞ xarici siyasət sahəsində prezidentə qərarların verilməsinə Milli Təhlükəsizlik Şurasının mövqeyi daha çox təsir edir. MTŞ digər qurumların rəy, hesabat və proqnozlarını siyasi, daha dəqiq desək, prezident səviyyəsində koordinasiya edir".***

"Unikal" xəbər verir ki, bu fikirləri siyasi şərhçi Aqşin Kərimov irəli sürüb. O bildirib ki, son məlumatlara əsasən, Ağ Evdə yerləşən bu peşəkar heyət, 200-400 siyasət mütəxəssisindən ibarətdir. Onların əksəriyyəti keçmiş dövlət qulluqçuları və ordunu təmsil edənlərdir: "ABŞ İranla açıq hərbi qarşıdurmaya meyilli görünsə də, Ağ Ev administrasiyasında bununla bağlı qərar qəbuletmə prosesi peşəkar fikir ayrılıqları ilə müşayiət olunur. Ona görə də, qərar üçün MTŞ-nin rəyi əsas təsir mühərriki kimi çıxış edəcək və ehtimalla, ABŞ İrana qarşı uzunmüddətli sərt güc tətbiqinə getməyəcək. Bu, eyni zamanda genişmiqyaslı eskalasiyanın yaranacağı risklər fonunda iqtisadi aktivlərə mənfi təsirlərin hesablanması ilə bağlıdır. Ancaq Prezident Donald bütün vasitələrdən istifadə edərək İrana zəifləməyə yönəlmiş yanaşmaları qəbul etməkdə çox istəklidir".

A.Kərimov onu da vurğulayıb ki, ABŞ ilə paralel onun rəqibi İran daha çox suallarla üzləşir. Buna baxmayaraq, İranın cavab reaksiyası, müharibənin Yaxın Şərq üzrə yayılma arealı barədə proqnozlar və buna dair Tehranın həyata keçirdiyi informasiya kampaniyası beynəlxalq rəyə təsirsiz ötüşmür: "Başqa tərəfdən, İranın ayda 300 ballistik raket istehsal etmək gücü barədə potensialının olması iddiaları prosesi daha da gərginləşdirir. CNN hələ bir müddət əvvəl, anonim İsrail mənbələrinə əsasən, İranın həftələr və ya aylar ərzində 1800 ilə 2000 arasında raketə sahib ola biləcəyini yazmışdı. Ancaq indi İran üçün ən vacib alət vaxtdır. Bu vaxtda İran ABŞ-yə "barışdırıcı" təklif təqdim etməyi hədəfləyir. Tehran "orijinal" təklif təqdim edəcəyi təqdirdə, zərbələri təxirə sala biləcəyini hesablaya bilər. İran digər cəbhədə hesablayır ki, ABŞ ilə danışıqların uzadılması Tehrana ballistik raket proqramını bərpa etmək üçün əlavə vaxt verəcək. Lakin İranın nüvə proqramı faylında mənalı güzəştə getmək ehtimalı ehtimalı çox azdır. Bu, İranın tarixi və strateji yol ayrıcında olduğunu kənara qoymur. Ona görə də, indi İran doktrinası Qərblə "müharibə və diplomatiyaya hazırlıq" strategiyasını mümkün güzəşt nəticələri birləşdirir".

Siyasi şərhçi hesab edir ki, İran İslam Respublikasının ideoloji sistemi müharibə və müqavimət üçün hazırlıqlıdır, onun təhlükəsizlik miqyasını həyata keçirən qurumlar arasındakı koordinasiya isə Ali Milli Təhlükəsizlik Şurasının alt qurumu olan Müdafiə Şurasına aiddir. "Ali Rəhbər Seyid Əli Xameneinin İslam Respublikasının təhlükəsizlik-ideoloji sistemini bütövlükdə mümkün təhdid ssenarilərinə hazırlıqlarını əks etdirən göstərişlərini çoxaldıb. Gümanla, Tehran ABŞ-nin əməliyyat elementi kimi müəyyən etmədiyi şəxsləri, başqa sözlə, ABŞ-nin sanksiya siyahısına düşməyən komandan heyətini hərbi-ideoloji oxu qüvvətləndirən faktor kimi önə çəkəcək"- deyə Aqşin Kərimov fikrini tamamlayıb.

***Seymur Əli***

# "Şəhərin mərkəzində çoxmərtəbəli binaların tikintisi qadağan olunmalıdır"

## Azər Badamov: "Bakının müxtəlif istiqamətlərində mövcud avtomobil yolu üzərində həmin yola paralel şəkildə körpülər üzərində ödənişli avtomobil yolu tikmək mümkündür"

***Milli Məclisin deputatı Azər Badamov "Unikal"a müsahibə verib. O, ödənişli yollarda sürət həddinin müəyyənləşməsindən, bu cür yolların sayının artırılacağından, Bakıda ödənişli hərəkət zonalarının yaradılmasından və paytaxtın tıxac məsələsinin necə həll ediləcəyindən danışıb.***

***-Azər müəllim, məlum olduğu kimi, ödənişli yollarda sürət həddi müəyyənləşib. Belə ki, minik avtomobilləri və icazə verilmiş maksimum kütləsi 3,5 tondan artıq olmayan yük avtomobilləri üçün ödənişli avtomagistrallarda - saatda 130 kilometrdən çox olmayan sürət həddi müəyyənləşir. Digər avtobuslar, yedəyində qoşqu aparan minik avtomobilləri, icazə verilən maksimum kütləsi 3,5 tondan artıq olan yük avtomobilləri üçün isə ödənişli yollarda sürət həddi saatda 90 kilometrdən çox olmamalıdır. Bu hal sürücülər üçün hansı imkanlar yaradır?***

-"Yol hərəkəti haqqında qanunun" 50-ci maddəsində edilmiş müvafiq dəyişikliyə görə, ödənişli avtomagistrallarda maksimum sürət həddi saatda 130 kilometr müəyyən olunub. Qanunvericilikdə bu dəyişikliyə qədər ödənişli avtomagistrallarda sürət həddinə məhdudiyyət müəyyən olunmamışdı. Bu da avtomobillərin çox sürətlə hərəkət etməsinə və insan ölümləri ilə nəticələnən yol qəzalarının artmasına yol açmışdı. Müvafiq dəyişiklikdən sonra isə ödənişli avtomagistrallarda hərəkət edən avtomobillər saatda 130 kilometr sürətindən yuxarı hərəkət edə bilməyəcəklər.Təbii ki, bu məhdudiyyət ödənişli avtomagistrallarda təhlükəsizliyin təmin edilməsinə xidmət edəcək. Bu gün istifadədə olan yeganə ödənişli yol Bakı-Rusiya Federasiyası yolunun 130 kilometrlik hissəsidir ki, həmin əraziyə ağıllı radarlar qoyulub və avtomobillərin sürət həddinə nəzarət təşkil olunub. Müəyyən olunmuş sürət həddindən yuxarı sürətlə kim avtomobili idarə edərsə, İnzibati Xətalar Məcəlləsinə uyğun şəkildə cəzalandırılacaq.

***-Siz də qeyd etdiniz ki, istifadədə olan cəmi bir ödənişli yol var. Ölkəmizdə ödənişli yolların sayının artırılması nəzərdə tutulurmu?***

- Bəli, səhv etmirəmsə, işğaldan azad olunmuş ərazilərdə də ödənişli avtomagistrallar istifadəyə veriləcək. Qeyd etmək istərdim ki, ödənişli avtomagistrallar maksimum rahatlıq və təhlükəsizlik deməkdir.

***-Gələn ilin əvvəlindən Bakıda ödənişli hərəkət zonalarının yaradılması nəzərdə tutulub. Paytaxtda ödənişli hərəkət zonalarının tətbiqi tıxacın azalmasına kömək ola bilərmi?***

-Paytaxt Bakıda ödənişli hərəkət zonalarının yaradılması şəhərin mərkəzində avtomobil sıxlığının azalmasına və tıxacların aradan qalxmasına xidmət edəcək. Ödənişli hərəkət zonalarının yaradılması beynəlxalq təcrübədə mövcuddur. Yəni, şəhərin mərkəzinə hamı şəxsi avtomobillə daxil olmamalıdır. Amma bunun üçün ictimai nəqliyyat müntəzəm işləməli və insanların rahat hərkətini təmin etməlidir.

***-Tıxaclardan danışdız. Hər il paytaxtda tıxacların artması müşahidə olunur. Universitetlərin köçürülməsi, iş saatlarının dəyişdirilməsi kimi təkliflər olur. Sizcə, tıxacın azaldılması istiqamətində hansı tədbirlərə ehtiyac var?***

-Bakı şəhərinin tıxac problemi günü-gündən artmaqdadır. Həm insanların şəxsi avtomobillərinin sayı artır, həm də şəhərin küçələri bu qədər avtomobili idarə etmək üçün hesablanmayıb. Bakının Baş planı sovet vaxtında tərtib olunub. Belə ki, Baş plan hazırlananda ümumiyyətlə respublikada olan avtomobillərin sayı məhdud idi. Bu gün isə küçələr həmin küçələrdir, amma şəhərin əhalisi və avtomobillərin sayı bir neçə dəfə artıb. Tıxacların azaldılması üçün tədbirlər görülməlidir. Bunun üçün universitetlərin paytaxtdan regionlara köçürülməsi ilə bağlı fikirlər zaman - zaman səsləndirilir. Amma mən bunu real hesab etmirəm. Çünki, universitetlərin ayrılıqda köçürülməsi böyük vəsait tələb edir. Şəhərdə tıxacların azaldılmasının ən düzgün yolu paytaxtın köçürülməsidir. Bunu üçün Yaşma düzündə böyük bir açıq ərazi var.Həmin ərazini müasir tələblərə uyğun şəkildə planlaşdırıb paytaxt ora köçürülərsə, Bakının yükü azalar və bu da tıxacların azalmasına səbəb olar. Həm də Yaşma düzü ərazisi ölkəmizin böyük şəhərləri olan Bakı və Sumqayıta yaxındır. Bu baxımdan paytaxtın köçürülməsi tıxacların azaldılmasının əsas yoludur.



Mövcud vəziyyətdə isə tıxacların azaldılması üçün şəhərin mərkəzində çoxmərtəbəli binaların tikintisi qadağan olunmalıdır. Bu gün şəhərdə istismar müddəti keçmiş 2-3 mərtəbəli binalar sökülür və onların yerində 25 mərtəbəli göydələnlər ucaldılır. Bu da şəhərin mərkəzində əhalinin sıxlığını artırır və tıxac probleminin daha da artmasına səbəb olur. Digər bir məsələ isə Bakıda ödənişli avtomobil yollarının tikilməsidir. Belə ki, şəhərin müxtəlif istiqamətlərində mövcud avtomobil yolu üzərində həmin yola paralel şəkildə körpülər üzərində ödənişli avtomobil yolu tikmək mümkündür. O cümlədən, dənizin üzərindən Bayılı Zığa birləşdirəcək ödənişli avtomobil yolu tikmək vacibdir. Ödənişli avtomobil yolunun tikilməsi üçün dövlət büdcəsindən vəsaitin ayrılmasına ehtiyac yoxdur. Beynəlxalq praktikada "tik-istifadə et-təhvil ver" qaydası ilə belə layihələr icra olunur.Bu baxımdan hansı istiqamətlər daha müvafiqdirsə, həmin istiqamətlərdə ödənişli yolun tikintisi üçün investorlar cəlb olunmalıdır. Belə olan halda uzun müddətə tıxac problemindən azad ola bilərik.

***Anar Kəlbiyev***

08_27 IYUl-QARA.qxd 2/26/2026 10:31 PM Page 8



# Şeyxülislamın Abel Məhərrəmov müəmması

## Bir neçə il əvvəl böyük ajiotaj doğuran qalmaqal unudulub? - Küsülülərin ilginc barışması...

***Bir neçə gün əvvəl Qafqaz Müsəlmanları İdarəsində (QMİ) Qərbi Azərbaycan İcmasının rəhbər heyəti ilə görüş keçirilib. Görüşlə bağlı sosial şəbəkədə paylaşılan məlumat və fotolarda bir məqam xüsusilə diqqət çəkib. Belə ki, haqqında danışılan görüşə qatılanlar arasında QMİ rəhbəri Şeyxülislam Hacı Allahşükür Paşazadənin bir vaxt ciddi konflikt yaşadığı Abel Məhərrəmov da olub. Bu isə onların keçmiş ixtilafı unutduqları və barışdıqları kimi yozulur.***

Xatırladaq ki, 2018-ci ilin noyabrında Abel Məhərrəmov BDU rektoru vəzifəsindən gözlənilməz şəkildə uzaqlaşdırıldı. Çox keçmədən isə onun “vurulması” ilə bağlı sensasion iddialar ortaya atıldı. İlk olaraq “musavat.com”un, ardınca isə ölkənin digər KİV-lərinin yaydığı məlumatda bildirilirdi ki, 2018-ci il noyabrın 3-də Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə başda olmaqla geniş tərkibli Azərbaycan nümayəndə heyəti İspaniyanın paytaxtı Madrid şəhərinə yola düşüb. Məqsəd bu ölkədə dini tolerantlıq mövzusunda keçiriləcək beynəlxalq konfransda iştirak etmək olub. Nümayəndə heyətinin tərkibində olan və adının çəkilməsini istəməyən şəxslərdən birinin verdiyi məlumata görə, səfər başlanğıcdan sona qədər “maraqlı macəralar”la zəngin olub.



Əvvəlcə, Airbus-319A təyyarəsi ilə uçmağa hazırlaşan nümayəndə heyəti öz yerini tutduqdan sonra təyyarə 2 saata qədər havaya qalxa bilməyib. Buna səbəb isə sərnişinlərdən birinin - nümayəndə heyətinin tərkibində yer alan BDU-nun rektoru, akademik Abel Məhərrəmovun 2 tonluq baqajı olub. Səfər iştirakçıları noyabrın 10-da Madriddən qayıdanda da eyni hadisə ilə üzləşməyə məcbur olublar. Yalnız A.Məhərrəmova və onun ölkəmizin İspaniya Krallığındakı səfir işləyən oğluna məxsus 2 tona qədər yük boşaldıldıqdan sonra təyyarənin uçuşuna icazə verilib.

Sual oluna bilər ki, bir nəfər bu qədər yüklə niyə səfərə çıxır? İddialara görə, haqqında danışılan yük adi yol çemodanları yox, sabiq rektor və onun səfir oğlunun şərab biznesinə aid çəlləklər imiş. Sən demə, şərab dolu çəlləklər kontrabanda yolu ilə Azərbaycandan İspaniyaya aparılır və orada şüşələrə doldurularaq qeyri-qanuni şəkildə geri qaytarılır. Sonra isə ispan şərabı adı ilə A.Məhərrəmova məxsus şadlıq evlərində, restoranlarda və digər ticarət nöqtələrində satılır.

Lakin BDU-nun keçmiş rəhbərini “yandıran” başlıca səbəb bu yox, hörmətli şeyxin təyyarəsini özünün yükdaşıma nəqliyyat vasitəsi hesab etməsi, Madridin “Eurostar Madrid” otelinin restoranında adı açıqlanmayan millət vəkillərindən biri ilə yeyib-içdiyi vaxt saldığı dava-dalaşdır. Yenə o vaxtkı iddialara görə, gətirdiyi şərablardan və cürbəcür ispan içkilərindən qəbul etdikdən sonra Məhərrəmov bəziləri ilə “haqq-hesab çürütmək” fikrinə düşüb. “Haqq-hesab” o qədər səs-küylü və aqressiv olub ki, nəinki restoran və oteldəkilər, hətta ətraf məhəllələrdə yaşayan sakinlər də narahat olublar. Yalnız ispan polisi işə qarışdıqdan sonra dava-dalaş dayanıb və bardakı hörmətli həmvətənlərimiz dağılışıblar.

Bəs sabiq rektoru özündən çıxaran o məşum səbəb nə imiş? Deyilənə görə, Azərbaycanın İspaniyadakı səfiri, sabiq rektorun oğlu Anar Məhərrəmovla şeyxin qudası Əli Evsen adlı iş adamı arasında olan ixtilaflar ucbatından baş verən bəzi “hörmətsizlik”lər onu özündən çıxarıb. Abel müəllimin fikrincə, Əli Evsen ona və oğluna lazımi diqqət göstərməyib. Səfər iştirakçılarından birinin o vaxt KİV-ə dediyinə görə, həmin gecənin səhəri tədbirin keçirildiyi salonda da xoşagəlməz anlar yaşanıb. Hələ də özünə gələ bilməyən Abel müəllim çıxış edərkən məntiqsiz və rabitəsiz sözlər səsləndirib.

Qeyd edək ki, bu iddialar ortaya çıxdıqdan bir müddət sonra öncə A.Məhərrəmov, sonra isə A.Paşazadə deyilənləri təkzib ediblər. “Elə başa düşürəm ki, bütün bunlar quraşdırmadır. Təyyarənin gecikməsi normal hadisədir, çarter reyslər də bir qayda olaraq yubanır. Mən o zaman soruşmuram ki, təyyarə niyə ləngiyir? Digər tərəfdən, mən nə Abel müəllimin, nə də heyətdə olan digər şəxslərin içki içdiyini görməmişəm” - QMİ sədri bildirib. Lakin ölkənin aparıcı media orqanları sözügedən olayların baş verməsində israr ediblər.

O da maraqlıdır ki, aradan keçən 8 ildə hörmətli Şeyxlə sabiq rektor heç vaxt ictimailəşdirilmiş şəkildə bir araya gəlməyiblər. Onların yalnız indi - Qərbi Azərbaycan İcmasının rəhbər heyəti ilə görüş çərçivəsində birgə fotoları yayımlanıb. Bu isə haqlı olaraq sosial mediada və bir çox media orqanlarında uzun müddətdir incik olan “küsülülərin” barışması kimi qiymətləndirilib. Məsələn, bu barışıqla bağlı “Azpolitika.info” yazıb ki, görünür, məlum hadisə səbəbindən yüksək postu ilə vidalaşmalı olan A.Məhərrəmov ya kinli adam deyil - hansı ki, buna inanmaq çox çətindir, - ya da Şeyxlə intriqa aparmağın, ona qarşı əsl hislərini biruzə verməyin ziyanlı olduğunu anlayacaq qədər ağıllıdır. Ancaq hər necə olsa, bu görüş səhnəsi kifayət qədər ziddiyyətli və maraqlıdır. Hər Şeyxi gördüyündə Məhərrəmovun ürəyindən necə “qara qanlar axdığını” isə təsəvvür etmək elə də çətin deyil...

***Toğrul Əliyev***



# Prezidentin nümayəndəsi Almaniyaya getdi

***Azərbaycan Respublikası Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Xələf Xələfov fevralın 25-də Almaniya Federativ Respublikasına səfər edib.***

”Unikal” xəbər verir ki, X.Xələfov səfər çərçivəsində Almaniya Parlamentində (Bundestaq) və Xarici İşlər Nazirliyində görüşlər keçirib.

Görüşlərdə Azərbaycan-Almaniya ikitərəfli münasibətlərinin hazırkı vəziyyəti müzakirə olunub və qarşılıqlı əməkdaşlıq fəaliyyətlərinin genişləndirilməsi imkanları barədə fikir mübadiləsi aparılıb.

Regionda davamlı sülhün bərqərar olunması, sabitliyin və təhlükəsizliyin möhkəmlənməsi istiqamətində ölkəmizin səyləri və təşəbbüsləri, eləcə də Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesi ətrafında geniş fikir mübadiləsi aparılıb.

Tərəflər qarşılıqlı maraq doğuran digər regional və beynəlxalq məsələləri də müzakirə ediblər.

# XİN başçısından AZAL təyyarəsinin vurulması ilə bağlı açıqlama



***AZAL təyyarəsinin vurulması məsələsində Azərbaycanın mövqeyi tamamilə qətiyyətlidir.***

”Unikal” xəbər verir ki, bunu Azərbaycanın xarici İşlər naziri Ceyhun Bayramov Xocalı soyqırımının 34-cü ildönümü ilə bağlı ”Ana harayı” abidəsini ziyarət edərkən jurnalistlərə açıqlamasında deyib.

Nazir qeyd edib ki, 2025-ci ilin oktyabr ayında Azərbaycan və Rusiya prezidentləri arasında görüşdə Rusiya Prezidenti tərəfindən səsləndirilmiş tədbirlər görülməlidir:

”Təyyarənin vurulması Rusiya müdafiə nazirliyinin səhvi ucbatından baş verib. Gözləntimiz ondan ibarətdir ki, buna dair bütün tədbirlər görüləcək, hüquqi qiymət veriləcək, kompensasiyalar ödəniləcək”.

Xatırladaq ki, dekabrın 25-də ”Azərbaycan Hava Yolları”nın J2-8243 nömrəli Bakı-Qroznı reysini yerinə yetirən ”Embraer 190” təyyarəsi Aktau şəhərinin yaxınlığında qəzaya uğrayıb. Təyyarədə olan 67 nəfərdən 38-i həlak olub, 29 nəfər sağ qalıb.

İlkin məlumata görə, təyyarə Rusiyanın Qroznı üzərindəki hava məkanında baş verən fiziki və texniki xarici müdaxilə nəticəsində qəzaya uğrayıb.

# Hansı özəl klinikalar onkoloji xidmət göstərəcək? - Nazirdən açıqlama

***Özəl sektorda onkoloji xidmət göstərmək və bu icazəni almaq üçün xüsusi qaydalar, tələblər hazırlanıb.***

”Unikal” xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında səhiyyə naziri Teymur Musayev deyib.

”Çox ciddi tələblərdir. Yalnız ən yüksək tələblərə cavab verən müəssisələrə həmin lisenziya veriləcək”, - deyə T.Musayev qeyd edib.



## Mikayıl Cabbarov Gürcüstan və Türkiyə nümayəndələri ilə bir arada

***Gürcüstan-Azərbaycan-Türkiyə biznes forumunda ölkələrimiz arasında iqtisadi inteqrasiyanın gücləndirilməsi və tərəfdaşlığın səmərəliliyinin daha da artırılması imkanları dəyərləndirilib.***

"Unikal" xəbər verir ki, bununla bağlı iqtisadiyyat naziri Mikayıl Cabbarov "X" sosial şəbəkə hesabında paylaşım edib.

"Regional bağlantıların gücləndirilməsi üçün strateji imkanları vurğulayaraq, enerji resurslarından effektiv istifadənin, Orta Dəhlizin potensialının reallaşdırılmasının, rəqəmsal tranzit infrastrukturunun təkmilləşdirilməsinin, ölkələrimizin ixrac imkanlarının artırılmasının və ticarət əlaqələrindəki dinamikanın davamlı dəstəklənməsinin önəmini qeyd etdik. Fəaliyyətimizin prioritet istiqamətlərindən olan təchizat zəncirlərinə investisiyaların cəlb edilməsi və işgüzar dairələr arasında sinerjinin təşviqi dayanıqlı iqtisadi ekosistemin formalaşdırılmasına xidmət edir", - deyə nazir bildirib.

## "Birliyimizi qorumalı və tarixi dərsləri unutmamalıyıq" - Əziz Ələkbərli

***"2020-ci ilin 27 sentyabrında başlanan Vətən müharibəsi Azərbaycan torpaqlarının işğaldan azad olunması ilə nəticələndi və bu, qəhrəman oğullarımızın şücaəti, Ali Baş Komandanın qətiyyəti sayəsində mümkün oldu".***

"Unikal" xəbər verir ki, bunu deputat Əziz Ələkbərli deyib. O bildirib ki, 44 günlük müharibə nəticəsində Azərbaycanın suveren əraziləri erməni işğalından azad edilib, o cümlədən Xocalı üzərində nəzarət bərpa olunub. Deputat qeyd edib ki, bu qələbə ölkə tarixində yeni mərhələnin əsasını qoyub: "Məsələ yalnız hərbi qələbə ilə yekunlaşmır. Erməni separatizmi və revanşizmi, eləcə də bu siyasəti dəstəkləyən müəyyən beynəlxalq dairələr bu gün də ikili standartlardan əl çəkmirlər".

Deputat əlavə edib ki, Azərbaycanın əsas vəzifəsi milli birliyi qorumaq, tarixi hadisələri unutmamaq, gənc nəsillərə düzgün çatdırmaq və dövlətin gücünü daha da möhkəmləndirməkdir. İşğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı quruculuq işləri aparılır, Xocalı və Qarabağın digər yaşayış məntəqələri bərpa olunur, 30 illik həsrətdən sonra məcburi köçkünlər doğma torpaqlarına qayıdırlar.

Əziz Ələkbərli qeyd edib ki, Qərbi Azərbaycan icmasının əsas hədəfi də ata-baba yurdlarına qayıdışdır və bu, soydaşlarımızın tarixi haqqıdır. Onun sözlərinə görə, tarixi torpaqlara qayıdış ideyası gələcək nəsillər üçün də mühüm mesajdır və milli yaddaşın qorunması baxımından xüsusi əhəmiyyət daşıyır.

## "Böyük Qayıdış"a 1.8 milyon ayrıldı

***Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu yeni salınmış yaşayış məntəqələrinə geri qayıdışla bağlı məlumatlandırma, təbliğat-izahat və təşviqat işlərinin aparılması üçün açıq tender elan edib.***

"Unikal" xəbər veriri ki, bu istiqamətdə lazımi informasiya dəstəyini təmin etmək üçün peşəkar reklam və marketinq xidmətlərinin cəlb olunması nəzərdə tutulur. Layihənin ehtimal olunan qiyməti: 1.836.976,80 azn-dir.

# Bəzi nazirliklər və dövlət komitələri ləğv olunur

## İslahatların yeni dalğası: hansı iri məmurlar işsiz qalacaq? - Sensasiyalı təfərrüatlar...

***Azərbaycanda idarəetmə sisteminin təkmilləşdirilməsi ilə bağlı struktur islahatları hökumətdə bəzi qurumların - nazirliklərin, komitələrin, agentliklərin birləşdirilməsi və ya ləğvi ilə davam etdiriləcək.***

Qeyd olunur ki, bir-birinin fəaliyyətini təkrar edən, yaxud oxşar olan qurumların, habelə idarəetmədə praktik fəaliyyəti zəif olan dövlət qurumlarının dairəsi müəyyənləşdirilib. Mənbə bildirib ki, onların saxlanılması dövlət büdcəsi üçün kifayət qədər ağır maliyyə yükü yaradır. Heç bir dəyər formalaşdıra bilməyən təsisatların yerləşdiyi binaların saxlanılması, cari fəaliyyətinin təmin edilməsi, çox sayda ştatların mövcudluğu məqsədəuyğun sayılmır. Hökumət bundan sonra dövlət təşkilatlarının və publik hüquqi şəxslərin (PHŞ) keyfiyyət əmsalına üstünlük verəcək.



"AzPolitika"ya hökumətə yaxın mənbələrdən daxil olan məlumatda o da bildirilir ki, bu sırada ötən 7-8 ildə yaradılan PHŞ-lərin sayının azı 2 dəfə azaldılması nəzərdə tutulur. Özünü maliyyələşdirmə imkanları olan, habelə fəaliyyət dairəsi zəruri olan təqribən 250-dək qurum saxlanılacaq, 300-ə qədər PHŞ isə ya ləğv ediləcək, yaxud birləşdiriləcək.

Bundan başqa yerli icra hakimiyyətlərində ixtisarların daha geniş miqyasda davam etdirilməsi qərarlaşdırılıb. Bu barədə artıq yerli icra qurumlarına müvafiq təlimatlar göndərilib.

Son olaraq Cəlilabad Rayon İcra Hakimiyyətində 28 əməkdaş vəzifəsindən azad edilib. Belə ki, 38 vəzifə ləğv edilib və nəticədə həmin şəxslər işini itiriblər. Onlardan 10 nəfəri müxtəlif qurumlarda müəyyən vəzifəyə təyin edilsə də, 28 nəfər yeni işlə təmin edilməyib. İcra başçısı Rafiq Cəlilovun sərəncamı ilə 28 əməkdaşın dövlət qulluğuna xitam verilib. Bundan əvvəl isə icra hakimiyyəti orqanlarında aparılan struktur dəyişikliyi ilə əlaqədar Ağsu Rayon İcra Hakimiyyətinin 14 əməkdaşı, Tovuz Rayon İcra Hakimiyyətinin isə 43 əməkdaşı vəzifələrindən azad ediliblər.

Mənbə narahatedici fakta da diqqət çəkir. Bu da dövlət qurumları ilə yanaşı özəl sektorda, böyük holdinq və şirkətlərdə də ixtisarların aparılması ilə bağlıdır. Qeyd olunur ki, ilin əvvəlindən işçilərin gəlir vergisinə cəlb olunması biznes və xidmət sektorunda xərcləri artırıb. Şirkət rəhbərləri artan xərclərini azaltmaq üçün ixtisara getməyi üstün tuturlar.

Mənbə vurğulayıb ki, hazırda struktur islahatları zamanı ixtisara düşən işçilərin məşğulluq problemlərinin həlli ilə bağlı məsələlərə baxılır. Onların bir hissəsi yeni qurumlarda, digərlərinin isə ixtisas və təcrübəsinə görə ehtiyac olan başqa təşkilatlarda işlə təmin olunması nəzərdə tutulur.

Hesablamalara görə, ixtisara düşənlərin azı üçdə biri əmək bazarında özünə yeni iş axtarmalı olacaq. Həm dövlət, həm də özəl sektorda kütləvi ixtisarlar cəmiyyətdə narahatlıq yarada bilər. Bu baxımdan, hökumətin məşğulluq məsələsini müzakirə etməsi başa düşüləndir. Real tədbirlər görülərsə, faydalı olar.

İqtisadçı ekspert Natiq Cəfərli Azərbaycanda bəzi qurumların - nazirliklərin, komitələrin, agentliklərin birləşdirilməsi və ya ləğv olunması ilə bağlı yayılan məlumata münasibət bildirərkən idarəetmənin optimallaşdırılmasının vacib olduğunu vurğulayıb: "Ötən illər ərzində çoxlu iş yerləri yaradılıb. Düzdür, bəzisi lazımsız iş yerləridir, heç bir əlavə dəyər yaratmır. Amma yaradılıb və həmin yerlərdə 10 minlərlə insan çalışır. Yaxşı, bəs onlarla bağlı hansı qərarlar veriləcək?" (Qaynarinfo). Ekspert əlavə edib ki, təkmilləşdirmə və optimallaşdırma ilə bağlı qərarlar verilərkən öncə kiçik və orta sahibkarlığın önü açılmalıdır: "Sahibkarlara o qədər güzəştlər tətbiq olunmalıdır ki, insanlar öz işini qura, biznesə keçə bilsinlər. Ən azından biznesdə işə düzələ bilsinlər".

"Unikal"ın əldə etdiyi məlumata görə isə birləşdirilməsi gözlənilən bəzi qurumların adları böyük ölçüdə bəllidir. Belə ki, Dövlət Gömrük Komitəsi və Dövlət Vergi Xidmətinin Maliyyə Nazirliyi ilə eyni strukturda birləşdirilməsi istisna olunmur. Elm və Təhsil Nazirliyi ilə Gənclər və İdman Nazirliyi kimi bir-birinə yaxın sahələrdə fəaliyyət göstərən iki qurumun da birləşdirilməsi təəccüb doğurmayacaq. Həmçinin təzəlikcə rəhbəri dəyişdirilən və fəaliyyəti ilə bağlı ciddi tənqidlər səsləndirilən Tibbi Əraziləri İdarəetmə Birliyinin (TƏBİB) Səhiyyə Nazirliyinə birləşdirilməsi aktualdır. Yeri gəlmişkən, fevralın 26-da səhiyyə naziri Teymur Musayevə bununla bağlı jurnalistlər tərəfindən sual ünvanlanıb. Nazir həmin suala konkret cavab verməyib. Onun bu cür reaksiyası da TƏBİB-in Səhiyyə Nazirliyinə birləşdiriləcəyi yönündə ehtimalları qüvvətləndirir.

Ümumilikdə isə belə hesab olunur ki, mümkün birləşmələr, yaxud ləğvetmələr hökumətin rasionallığı, büdcəyə qənaət və idarəetmədə daha çevik və mütəhərrik sistemin yaradılması baxımından məqsədəuyğundur.

***Toğrul Əliyev***

08_27 IYUl-QARA.qxd 2/26/2026 10:31 PM Page 10



# Əbülfəs Qarayevə növbəti sensasiyalı ittiham

## Ölkə başçısının Əməkdar artistə bağışladığı evə görə sabiq nazir 36 min manat alıb?

***Bu yaxınlarda 80 illik yubileyini qeyd edən Əməkdar rəssam Fikrət Ələkbərov yerli KİV-ə müsahibəsində sabiq mədəniyyət naziri Əbülfəs Qarayevlə bağlı sensasion iddia ilə çıxış edib. O da maraqlıdır ki, bu iddianın üzərindən günlər keçməsinə baxmayaraq sabiq nazir deyilənlərə münasibət bildirməyib.***

Bəs Əməkdar rəssam nə deyib?

Fikrət Ələkbərov "Yeni sabah"a yubiley müsahibəsində xalis Bakılı olduğunu söyləyib: "İçəri Şəhərdə doğulmuşam. Sonra Ələsgər Ələkbərovun doğulduğu ata-baba evinə qayıtmışıq. Oradan da Təzə Pir məcidinin yanına köçmüşük. "Azərbaycanfilm"də işlədiyim vaxtda indi yaşadığımız evi Prezident İlham Əliyev mənə bağışlayıb. Lakin də, Əbülfəs Qarayev sükut içindədir. O, Əməkdar rəssamın dediklərini nə təsdiq, nə də təkzib edib. Sabiq nazirin bu sükutunun səbəbini bilmirik, ancaq "susmağın razılıq əlaməti" olduğunu, eyni zamanda da Qarayev vəzifədə ikən Mədəniyyət Nazirliyini çulğayan rüşvət və korrupsiya hallarını nəzərə alsaq, Əməkdar artistin iddiasına şübhə ilə yanaşmaq sadəlövhlük olardı.

Ən azından unutmayaq ki, sabiq nazir Dövlət Təhlükəsizlik Xidmətinin 2020-ci il mayın 8-də keçirdiyi anti-korrupsiya əməliyyatından 13 gün sonra, mayın 21-də Əbülfəs Qarayev Prezidentin sərəncamı ilə vəzifəsindən azad olunmuşdu. Həmin zaman iki yüksək vəzifəli şəxsi rüşvət və mənimsəməyə görə həbs edilən sabiq nazirin də istintaqa cəlb edildiyi, hətta həbs edilə biləcəyi haqda məlumatlar də kifayət qədər geniş rüşvət və korrupsiya sxemi düzəldibmiş. Ən acınacaqlısı isə odur ki, bu sxem adında məhz "mədəniyyət" sözü bir nazirlikdə işləyirdi. Burada hər şey keçmiş nazir və yaxın ətrafı üçün qanunsuz gəlir mənbəyinə çevrilmişdi - onlar hər şeyə maddiyyat gözü ilə baxırdılar.

Sadə bir fakt: Qarayevin ən etibarlı kadrlarından olan və məlum anti-korrupsiya zamanı həbs olunan Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin keçmiş rəisi Zakir Sultanov sonradan "etibarsız" çıxmış, sabiq nazir haqda bir sıra tükürpədici faktlar açıqlamışdı. Z.Sultanov istintaqa ifadəsində demişdi ki, aldığı rüşvətin böyük əksəriyyətini Qarayevə verib. O, mədəniyyət abidələri və binalarının təmir-tikintisi üçün tenderdə qalib olmaq istəyən şir-



bizim hörmətli keçmiş nazirimiz Əbülfəs Qarayev buranı bizə satıb. 36 min pul vermişəm bu mənzilə. Öz qiyməti 72 min idi, yarı qiymətinə almışıq. İtaparanı olsun. Bütün bu ərazilər kinostudiyaya aid idi".

"Bəs bilmirdiniz ki, Prezident buranı sizə bağışlayıb? Niyə şikayət etmədiniz?" sualına cavab olaraq isə F.Ələkbərov bildirib: "Dedilər ki, şikayət etsən, evi əlindən alacağıq".

Qeyd etdiyimiz kimi, bu ağır ittihamın üstündən günlər keçsə yayımlanırdı. Lakin Qarayev həmin təhlükəni sovuşdura bildi. Sonradan Hesablama Palatasının yoxlamaları əsasında Baş Prokurorluğun yeni maddələr və yeni epizodlarla cinayət işi başlatmasından məlum oldu ki, Qarayevin başı üzərindəki qara buludlar hələ çəkilməyib. Bununla belə, sabiq nazir yenə də həbsdən qurtuldu.

Ancaq istənilən halda bir həqiqət gün kimi aydın şəkildə ortaya çıxdı: Əbülfəs müəllim vəzifədə ikən Mədəniyyət Nazirliyin-kətlərdən aldığı pulları keçmiş nazirin xidməti otağında nazirə şəxsən təqdim etdiyini bildirmişdi. Sultanovun ifadələrinə əsasən, Ə.Qarayevə verdiyi pulların ümumi məbləği 2,5 milyon manatdan çox olub!

Yaxşı, indi bundan sonra dövlətin bir sənətkara verdiyi mənzilə görə Əbülfəs müəllimin ondan faktiki rüşvət almasına niyə inanmayaq?! Onun mədəniyyət naziri olduğu dövrdə hətta fəxri adlar üçün təqdimatların belə "görüm-baxımla" verildiyi yönündə iddialar var. Məhz Qarayev vəzifədə ikən böyük kitab mağazalarının və kitabxanaların yerləri satılmamışdımı? Məhz Qarayev vəzifədə ikən Bakının mərkəzindəki bir çox tarixi binalar kimlərinsə biznes maraqlarına qurban verilmədimi? Məhz Qarayev vəzifədə ikən Səttar Bəhlulzadə adına Mərkəzi Sərgi Salonunun yeri satılıb əvəzində kimyəvi təmizləmə ilə məşğul olan biznes obyekti fəaliyyətə başlamadımı? İstər DTX-nin əməliyyatı, istərsə də Hesablama Palatasının yoxlamaları sabiq nazirin zamanında Mədəniyyət Nazirliyində ən aşağı vəzifədə oturandan ən başda yer tutana qədər korrupsiya, rüşvət mexanizminin var gücü ilə işlədiyini bütün çılpaqlığı ilə ortaya qoymadımı?

Bütün bunlardan sonra Əbülfəs Qarayevin bir sənətkara, Əməkdar rəssama dövlət tərəfindən verilmiş mənzil üçün 36 min manat almasına təəccüblənməliyikmi?!

***Sənan Mirzə***



# Baş nazir qərar imzaladı

## İcbari tibbi sığorta üzrə Xidmətlər Zərfində dəyişiklik edildi

***İcbari tibbi sığortanın Xidmətlər Zərfində dəyişiklik edilib.***

"Unikal" xəbər verir ki, Baş nazir Əli Əsədov bununla bağlı qərar imzalayıb.Qərara əsasən, həbs edilmiş şəxslərə, müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəza çəkən şəxslərə (məntəqə tipli cəzaçəkmə müəssisələri istisna olmaqla) tibbi xidmətlərin göstərilməsi şərtləri müəyyənləşib. Həbs edilmiş şəxslərə, müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəza çəkən şəxslərə (məntəqə tipli cəzaçəkmə müəssisələri istisna olmaqla) tibbi xidmətlər aşağıdakı şərtlərlə göstərilir:

-müvafiq tibbi xidmətin Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Tibb Baş İdarəsi tərəfindən göstərilməsi üçün zəruri tibbi avadanlıq və (və ya) müvafiq sahə üzrə işçilərinin olmaması;

-bir büdcə ili ərzində tibbi xidmətlər göstərilən həbs edilmiş şəxslərin, müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəza çəkən şəxslərin (məntəqə tipli cəzaçəkmə müəssisələri istisna olmaqla) 1500 nəfərdən çox olmaması;

-bu Sənəd nəzərə alınmaqla, bir büdcə ili ərzində icbari tibbi sığorta fondunun vəsaiti hesabına həyata keçirilən sığorta ödənişlərinin 200 000 manatadək olması. Həbs edilmiş şəxslərə, müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəza çəkən şəxslərə (məntəqə tipli cəzaçəkmə müəssisələri istisna olmaqla) tibbi xidmətlərin göstərilməsi zamanı Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən təhlükəsizlik tədbirləri təmin edilir.

# Qarabağ müharibəsi iştirakçısının meyiti tapıldı

***Şəkidə evdən kişi meyiti aşkarlanıb.***

"Unikal"ın məlumatına görə, hadisə rayon mərkəzində qeydə alınıb. Belə ki, rayon sakini Əhmədov Asim Rahim oğlu rayon mərkəzində yaşadığı evdə ölü tapılıb. Üzərində hər hansı zorakılıq əlaməti müəyyən olunmayan bu şəxsin Qarabağ müharibəsi iştirakçısı olduğu deyilir. Faktla bağlı araşdırma aparılır.

***Ehtiram Muradov***

# AHİK-dən əməkdaşlarının işdən çıxarılması ilə bağlı rəsmi açıqlama

***Son günlər bəzi xəbər saytlarında Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında (AHİK) bir neçə əməkdaşın işdən azad olunması ilə bağlı həqiqətə uyğun olmayan və əsassız məlumatlar yayılıb.***

Məsələ ilə bağlı Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyası "Unikal"a açıqlama verib.

"Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası olaraq bildiririk ki, fəaliyyətimizə və işgüzar nüfuzumuza xələl gətirən bu cür yanlış və ictimaiyyəti çaşdıran məlumatların yayılması qəbuledilməzdir və jurnalistika etikasına sığmır. Media subyektlərini dərc etməzdən əvvəl xəbəri rəsmi mənbələrdən dəqiqləşdirməyə, peşə etikasına riayət etməyə və qüvvədə olan media qanunvericiliyinin tələblərinə əməl etməyə çağırırıq.

AHİK ilə bağlı bu yanlış və əsassız məlumatı yayımlayan media orqanlarından təkzib verməlirini və gələcək fəaliyyətlərində daha diqqətli olmalarını xahiş edirik", - açıqlamada qeyd olunub.

08_27 IYUI-QARA.qxd 2/26/2026 10:31 PM Page 11





## Bankların nağd ABŞ dolları satışı 2 dəfədən çox azaldı

***2026-cı ilin yanvar ayında Azərbaycanda banklar tərəfindən nağd ABŞ dollarının alqı-satqısı üzrə aparılmış əməliyyatların həcmi 260 milyon 423 min təşkil edib.***

"Unikal" Azərbaycan Mərkəzi Bankına istinadən xəbər verir, bu göstərici əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 36.5% və ya 149.9 milyon ABŞ dolları azalıb.

Qeyd edək ki, hesabat dövründə bankların nağd ABŞ dolları alışı 2025-ci ilin yanvar ayı ilə müqayisədə 7.5% artaraq 124.9 milyon, satışı isə 2.2 dəfə azalaraq 135.6 milyon təşkil edib.

Bu dövrdə banklar tərəfindən nağd avronun alışı ötən ilin yanvar ayı ilə müqayisədə 2.7% azalaraq 9.5 milyon, satışı isə 2.1 dəfə azalaraq 8.1 milyon təşkil edib.

## DİM işçi axtarır

***Dövlət İmtahan Mərkəzi "İnformasiya təhlükəsizliyi üzrə baş məsləhətçi" və "Verilənlər bazasının (MSSQL) inzibatçısı - baş məsləhətçi" vəzifələri üzrə vakansiya elan edir.***

Bu barədə Dövlət İmtahan Mərkəzindən "Unikal"a bildirilib. Hər bir vəzifə üzrə qulluq funksiyaları, vəzifənin tutulma şərtləri və digər tələblər DİM-in saytının "Vakansiya" bölməsində yerləşdirilib.

Namizədlər 19 mart 2026-cı il tarixinədək müvafiq bölmədə tələblərlə tanış olub //portal.dim.gov.az/HR/ linkinə keçid edərək vakansiya adını seçərək müraciət edə bilərlər.

DİM-də hazırda mövcud olan digər vakant yerlər də saytın "Vakansiya" bölməsində yerləşdirilib.

## Cərimələrin ödənilməsi qaydası dəyişir - Müzakirə olunacaq

***Milli Məclisin sabahkı iclasında Cəzaların İcrası Məcəlləsinə təklif edilən dəyişikliklərin üçüncü oxunuşda müzakirəsi gözlənilir.***

"Unikal" xəbər verir ki, layihə cərimə cəzasının icra mexanizmini daha dəqiq və effektiv şəkildə tənzimləməyi hədəfləyir.

Yeni redaksiyada təqdim olunan 24-cü maddəyə əsasən, məhkum cəriməni müəyyən olunmuş müddətdə ödəmədikdə, onun icrası hökmü çıxarmış məhkəmə tərəfindən məcburi qaydada həyata keçiriləcək. Dəyişikliklər icranın hansı ardıcıllıqla aparılacağını dəqiqləşdirir. İlk növbədə, cərimənin məhkumun əməkhaqqından və ya digər rəsmi qazancından tutulması nəzərdə tutulur. Əgər məhkumun sabit gəliri yoxdursa və ya gəlir cərimənin ödənilməsinə kifayət etmirsə, icra məhkumun xüsusi mülkiyyətində olan əmlaka yönəldiləcək. Bu mərhələdə "İcra haqqında" Qanunun borclunun əmlakına yönəlmə ilə bağlı müddəaları işə düşəcək.

Dəyişikliklərin mahiyyəti cərimələrin icrasında daha ədalətli və operativ mexanizm yaratmaqdır. Xüsusilə, cərimə məbləği ilə uyğun olmayan dəyərdə əmlakın həbs edilməsi və satışa çıxarılması ehtimalı minimuma endirilir. Gəlir prioritetli əsas kimi seçildiyinə görə həm icra prosesi sürətlənəcək, həm də əlavə hüquqi yük azalacaq.

Qanun layihəsi birinci və ikinci oxunuşda təsdiqlənib və sabah keçiriləcək üçüncü oxunuşda sonuncu hüquqi redaksiyada müzakirə olunacaq.

# Dövlət Əmək Müfəttişliyinə qarşı sərt tənqidlər

## Qurumun hansı qərarı ciddi etirazlara səbəb oldu?

***Yola salmaq üzrə olduğumuz həftə məlum oldu ki, Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun direktoru, filologiya elmləri doktoru, professor Nadir Məmmədli inzibati məsuliyyətə cəlb edilib. Dövlət Əmək Müfəttişliyi Xidməti (DƏMX) tərəfindən onun barəsində İnzibati Xətalar Məcəlləsinin 555.1-ci maddəsi ilə (baş vermiş hadisə barədə məlumat verilməməsi) cərimə protokolu tərtib olunub. Cəriməyə institutun iki qadın əməkdaşı arasında yaranan şəxsi münaqişə səbəb olub. Hadisə əməkdaşlar tərəfindən öz aralarında həll edilib və ciddi nəticə qeydə alınmayıb.***

Nadir Məmmədli Dövlət Əmək Müfəttişliyi Xidmətinin qərarından apellyasiya şikayəti verib. Şikayət təmin olunmayıb.




İnstitut direktoru məsələ ilə bağlı mediaya açıqlamasında DƏMX-nin addımına və məhkəmənin qərarına sərt etiraz bildirib. Sitat: "Dövlət strukturlarında bu cür əngəllər var və bunlar bizim işimizə mane olur. Sonra da deyirlər ki, belə işləyir, düz işləyir. Məhkəmələr də belə işləyirsə, daha sözüm yoxdur. Qalırsan ki, kimə müraciət edəsən? Hər kəs öz işi ilə məşğul olsa, belə olmaz. Bu iki nəfərin mübahisəsinin elmə aidiyyəti yoxdur, istehsalat mübahisəsi deyil və burada baş verən hadisə bizə aid deyil. Belə olmaz. Bu səviyyədə işləyiriksə, hansı düzlükdən, hansı rəqabətdən danışırıq? Bilirəm ki, indi bunu Ali Məhkəməyə də versəm, eyni hal olacaq. Ara yerdə bizim aldığımız maaşı da bunların büdcəsinə köçürürlər".

Deputat Fazil Mustafa isə məsələyə belə reaksiya verib: "Dilçilik İnstitutunun iki qadın əməkdaşı arasında şəxsi münaqişə baş verib. Yəni "Matroslar savaşarkən araya girməzlər" qəbilindən bir hadisə baş verib. Sonradan münaqişə işçilər tərəfindən öz aralarında həll olunub və heç bir ağır nəticə yaranmayıb. Yəni ölüm, xəsarət, maddi ziyan və s. ortada yoxdur. Həmin davaya görə Nadir Məmmədli İnzibati Xətalar Məcəlləsinin 555.1-ci maddəsi ilə təqsirli bilinib və 1300 manat məbləğində cərimə edilib. Direktor buna etiraz edərək apellyasiya şikayəti verib. O qeyd edib ki, baş verən münaqişə nəticəsində heç kim sağlamlıq itkisinə məruz qalmayıb, heç bir tibbi yardıma ehtiyac yaranmayıb və hadisə işçilər tərəfindən öz aralarında həll olunub. Nadir müəllim bu olayı "istehsalatda bədbəxt hadisə" kimi təqdim etməyi və onun tərəfindən hadisənin gizlədilməsini tamamilə əsassız iddia hesab edib. Lakin institut direktorunun şikayəti təmin edilməyib… Əmək Müfəttişliyi ayda 1150 manat maaş alan direktor üçün nə az, nə çox - 1300 manat cərimə protokolu tərtib edib. Professor Nadir Məmmədlini yaxşı tanıyıram, dilimizin saflığının qorunması üçün hər cür fədakarlıq edən, cüzi maddi imkanlarını dəyərli kitabların çapına yönəldən bir ziyalımızdır. Hələ də anlamaq olmur, Dilçilik İnstitutu istehsal müəssisəsidirmi, yaxud da iki qadının bir-biri ilə şəxsi zəmində sözləşməsi və sülh yolu ilə ayrılması bədbəxt hadisədirmi? Son illərin, bəlkə də, ən absurd qərarı ilə qarşılaşdığımı gizlətmirəm. Bundan sonra Dilçilik İnstitunun əsasnaməsinə gərək "dil istehsal edən müəssisə" sözləri yazılsın ki, bura da istehsalat kimi tanınsın. Yaxşı ki, hələ emal müəssisəsi kimi qələmə verməyiblər. Dilçilik İnstitutunun adını daşıdığı Nəsiminin dərisini də deyəsən bu cür absurd ittihamla soymuşdular. Burada deyirlər e, tarix təkrarlanır".

Məsələyə başqa prizmadan yanaşanlar da var. Onların fikrincə, DƏMX Dilçilik İnstitutunun direktoru ilə bağlı göstərdiyi qətiyyəti işçi hüquqlarına dırnaqarası yanaşan məmurlara, həmin məmurlara bağlı şirkətlərə qarşı göstərsə, daha yaxşı olardı. Unutmayaq ki, sabiq əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümovun 2022-ci ildəki məhkəmə iclarından birində adıçəkilən Xidmətlə bağlı sensasiyalı faktlar açıqlanmışdı. Məsələn, şahid Mahir Şükürov bildirmişdi ki, Dövlət Əmək Müfəttişliyinin Salyan, Şirvan, Neftçala, Hacıqabul rayonlarının daxil olduğu 11 saylı Dövlət Əmək Müfəttişliyinin rəisi olub. O, ifadəsində göstərmişdi ki, 2014-cü ilin may-oktyabr ayları ərzində Dövlət Əmək Müfəttişliyinin o vaxtkı rəisi Fuad Əlizadəyə hər ay 4 min manat rüşvət çatdırıb. Başqa bir şahid Vüqar Abdullayev də istintaqda bənzər ifadə vermişdi. O bildirmişdi ki, hər ay Fuad Əlizadəyə 25 min manat pul göndərirdi. Hakim və prokuror Vüqar Abdullayevdən soruşmuşdu ki, hər ay 25 min manatı necə əldə edirdin? O da cavabında demişdi ki, Dövlət Əmək Müfəttişliyi tərəfindən müəssisələrdə yoxlamalar aparılır, nöqsanlar aşkarlanır və buna görə ödənişlər olurdu. Əlbəttə, biz oxşar halların hələ də davam etdiyini söyləməkdən uzağıq. Lakin o da bir faktdır ki, DƏMX-nin xüsusilə məmur şirkətlərində əmək hüquqlarının pozulmasına dözümlü yanaşdığı yönündə iddialar indi də zaman-zaman gündəmə gəlir. Bu səbəbdən də qurumun bir elm müəssisəsindəki xırda problemə görə nümayiş etdirdiyi böyük prinsipiallığın arxasında güclü himayədarların dayandığı şirkətlərə, qurumlara qarşı da nümayiş etdirməsi ən böyük arzumuzdur.

***Toğrul Əliyev***

08_27 IYUl-QARA.qxd 2/26/2026 10:31 PM Page 12



## 5.3.15. dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Ramazan ayı dini tolerantlığın və həmrəyliyin təcəssümüdür!

### Hacı İlham Səlimov: "Ramazan ayının mənəvi mesajı təkcə müsəlmanlara deyil, bütün cəmiyyətə ünvanlanır və dini tolerantlığın möhkəmlənməsinə töhfə verir"

***Bir neçə gündür müsəlman dünyasının mübarək hesab etdiyi Ramazan ayı başlayıb. Müsəlmanlar bu mübarək ayın ilk günündən dua edir, oruc tutaraq mənəvi saflaşırlar.***



Ramazan ayı İslam dünyasında mənəvi saflaşma, səbr və mərhəmət ayı kimi xüsusi əhəmiyyət daşıyır. Bu müqəddəs Ramazan ayı boyunca müsəlmanlar oruc tutaraq nəfsini tərbiyə edir, ehtiyacı olanlara yardım göstərir və cəmiyyət daxilində həmrəylik ruhunu gücləndirirlər. Lakin Ramazan yalnız fərdi ibadət dövrü deyil, eyni zamanda dini tolerantlığın, qarşılıqlı hörmətin və birgəyaşayış mədəniyyətinin təşviq olunduğu bir zaman kəsiyidir.

Tarix boyu müxtəlif din və mədəniyyətlərin nümayəndələrinin bir arada yaşadıqları cəmiyyətlərdə Ramazan ayı qarşılıqlı anlayış və dialoq üçün də fürsət yaradıb. Bu ayın əsas dəyərləri olan mərhəmət, bağışlama və paylaşma prinsipləri təkcə müsəlmanlara deyil, bütün insanlara ünvanlanmış ümumbəşəri çağırış kimi çıxış edir. Məhz bu baxımdan Ramazan ayı dini tolerantlığın möhkəmlənməsində və fərqli inanclara sahib insanların bir-birinə hörmətlə yanaşmasında mühüm rol oynayır.

"Əjdərbəy" məscidinin axundu, Hacı İlham Səlimov "Unikal" qəzetinə müsahibəsində Ramazan ayını təkcə ibadət və oruc ayı kimi deyil, həm də mənəvi kamilləşmə və cəmiyyət daxilində qarşılıqlı hörmətin gücləndiyi bir dövr kimi dəyərləndirib. Onun fikrinə görə, Ramazan ayı insanın nəfsini tərbiyə etməsi ilə yanaşı, başqalarına qarşı daha anlayışlı və mərhəmətli olmasını təşviq edir. Bu isə dini tolerantlığın əsasını təşkil edən dəyərlərdir.

Hacı İlham Səlimov vurğulayır ki, İslamın mahiyyətində zorakılıq deyil, sülh və mərhəmət dayanır.

Ramazan ayı da bu prinsiplərin cəmiyyətə daha aydın şəkildə çatdırılması üçün mühüm fürsətdir. Onun yanaşmasına görə, fərqli din və məzhəblərə mənsub insanların bir arada yaşadığı cəmiyyətlərdə Ramazan ayı qarşılıqlı hörmət, dialoq və birgəyaşayış mədəniyyətinin inkişafına xidmət etməlidir.

O həmçinin qeyd edir ki, oruc insanı aclıq və ehtiyac hissini anlamağa yönəldir, bu isə sosial ədalət və humanizm ideyalarını gücləndirir. Nəticə etibarilə, Ramazan ayının mənəvi mesajı təkcə müsəlmanlara deyil, bütün cəmiyyətə ünvanlanır və dini tolerantlığın möhkəmlənməsinə töhfə verir.

"Ramazan ayının əsas qayəsi mərhəmət, bağışlama və paylaşmaqdır. Bu dəyərlər yalnız müsəlmanlara deyil, bütün insanlara ünvanlanır və cəmiyyətdə qarşılıqlı hörmət mühitinin formalaşmasına xidmət edir. Beləliklə, Ramazan həm fərdi mənəvi kamilləşmə, həm də ictimai səviyyədə tolerantlığın möhkəmlənməsi üçün mühüm bir məktəb rolunu oynayır. Azərbaycan çoxmillətli dövlətdir. Müxtəlif dini konfensiyaların qovuşduğu məkandır. Ramazan ayının dini konfesiyalara təsiri təkcə müsəlman icması ilə məhdudlaşmır. Bu ayın daşıdığı mənəvi dəyərlər fərqli dini icmalar arasında münasibətlərə də müsbət təsir göstərir.Ramazan dövründə mərhəmət, paylaşma və xeyriyyəçilik ənənələrinin güclənməsi digər konfesiyalarla sosial həmrəyliyin artmasına səbəb olur. İftar süfrələrinə fərqli din nümayəndələrinin dəvət olunması, birgə xeyriyyə aksiyaları və ictimai tədbirlər dinlərarası dialoqu möhkəmləndirir. Bu mübarək ay qarşılıqlı hörmət mühitini gücləndirir. Digər dini icmalar Ramazan ayına hörmətlə yanaşaraq ictimai mühitdə anlayış nümayiş etdirir, bu da multikultural dəyərlərin inkişafına töhfə verir.Nəhayət, Ramazan konfesiyalar arasında ortaq mənəvi dəyərlərin-səbr, bağışlama, yardımlaşma və humanizmin ön plana çıxmasına şərait yaradır. Bu ortaq məqamlar fərqli dini inanclara sahib insanların bir arada sülh və qarşılıqlı anlaşma şəraitində yaşamasını təşviq edir", deyə axund bildirib.

Qeyd edək ki, Azərbaycan dünyaya öz tolerantlıq modeli ilə örnəkdir.

Ramazan ayında müxtəlif dini konfensiyalara aid insanların birgə iftar süfrəsi açması artıq bir adət halını alıb. Multikultural mühitdə keçirilən iftar mərasimləri cəmiyyət daxilində birlik və bərabərlik mesajı verir. Paylaşmaq, ehtiyacı olanlara dəstək olmaq və birlikdə dua etmək kimi elementlər fərqli inanclara sahib insanların mənəvi yaxınlaşmasına töhfə verir.Birgə iftarlar zamanı müxtəlif dinlərin nümayəndələri eyni süfrə arxasında toplaşaraq qarşılıqlı hörmət və anlayış nümayiş etdirirlər. Bu, dinlərarası dialoqu gücləndirir, stereotiplərin aradan qalxmasına və ortaq dəyərlərin ön plana çıxmasına şərait yaradır.

Beləliklə, birgə iftar süfrələri Ramazanın əsas mahiyyətini - mərhəmət, birlik və tolerantlıq ideyalarını real əks etdirən mühüm ictimai hadisədir. Hansı ki, ölkəmiz bu tolerantlıq və birgə yaşayış modelini əsrlərdir qoruyur, nəsildən-nəsilə ötürür.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**

## Vətəndaşlara 1000 manat ödəniş ediləcək? - Rəsmi açıqlama



***Sosial şəbəkələrdə 1932-ci ildən 2017-ci ilə qədər doğulmuş vətəndaşlara Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun (DSMF) 1 000 manat ödəniş edəcəyi barədə yayılmış məlumatlar tamamilə yalandır.***

"Unikal" xəbər verir ki, bunu Fondun İctimaiyyətlə əlaqələr departamentinin müdiri Rəşad Mehdili məlumat yayıb.

O qeyd edib ki, yayılmış videoməlumat vətəndaşları aldatmaq məqsədi daşıyır: "Məlumatda rəsmi siyahı və s. tanış olmaq üçün izləyicilər profildəki linkə yönləndirilir ki, bu da dələduzluq yolu ilə onların kart məlumatlarını, nəticədə pul vəsaitlərini ələ keçirmək məqsədi daşıya bilər. Vətəndaşların diqqətinə çatdırırıq: Həmin saxta məlumata aldanmayın və məlumatda yönləndirilən linkə heç bir halda daxil olmayın".

## Xızıda Xocalı soyqırımının 34-cü ildönümünə həsr olunmuş anım tədbiri keçirilib



***Xızı Rayon Statistika İdarəsində Xocalı soyqırımının 34-cü ildönümü ilə əlaqədar anım tədbiri keçirilib.***

Tədbir çərçivəsində idarə əməkdaşları ilk olaraq Xızı şəhərində yerləşən şəhidlərin xatirə abidəsini ziyarət etmiş, onların əziz xatirəsini dərin ehtiramla yad ediblər. Abidə önünə gül dəstələri düzülmüş, şəhidlərin ruhuna dualar oxunmuş və xalqımızın yaddaşına həkk olunmuş bu faciənin unudulmayacağı bir daha vurğulanmışdır. Ziyarət mərasimindən sonra tədbir Xızı Rayon Statistika İdarəsinin inzibati binasında iclas formatında davam etdirilmişdir. İclas iştirakçıları tərəfindən Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Xızı RSİ-nin idarənin rəisi Rövşən Quliyev iclası giriş sözü ilə açaraq, Xocalı faciəsinin Azərbaycan xalqının tarixində ən ağır və faciəli səhifələrdən biri olduğunu qeyd etmiş, bu hadisənin dünya ictimaiyyətinə çatdırılmasının və gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsinin vacibliyini xüsusi vurğulamışdır.

Daha sonra çıxış edən idarənin məsləhətçisi Bahar Aslanova Xocalı soyqırımının başvermə səbəbləri, faciənin miqyası və onun beynəlxalq hüquq baxımından qiymətləndirilməsi barədə geniş və ətraflı məlumat vermişdir. O, çıxışında 1992-ci il fevralın 25-dən 26-na keçən gecə dinc əhaliyə qarşı törədilmiş amansız qətliamın mahiyyətini diqqətə çatdırmış, bu hadisənin insanlığa qarşı cinayət kimi tanındığını bildirmişdir. Eyni zamanda vurğulanmışdır ki, Xocalı həqiqətlərinin beynəlxalq aləmdə tanıdılması istiqamətində dövlətimiz tərəfindən ardıcıl və məqsədyönlü işlər həyata keçirilir.

İclas zamanı iştirakçılar tərəfindən mövzu ətrafında fikir mübadiləsi aparılmış, Xocalı soyqırımı qurbanlarının xatirəsinin daim uca tutulmasının hər bir vətəndaşın mənəvi borcu olduğu qeyd edilmişdir. Tədbirin sonunda bu kimi anım mərasimlərinin gənc nəsildə milli yaddaşın qorunması və vətənpərvərlik hisslərinin gücləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb etdiyi vurğulanmışdır.

***Xızı Rayon Statistika İdarəsinin rəisi Rövşən Quliyev***

08_27 IYUl-QARA.qxd 2/26/2026 10:31 PM Page 13





## Səhiyyə nazirindən plastik cərrahlarla bağlı açıqlama

***Plastik və estetik əməliyyat üçün icazəsi olanların sayı 45 nəfərdir.***

"Unikal" xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında səhiyyə naziri Teymur Musayev deyib.

O bildirib ki, onların sayı ilbəil arta bilər: "Məlum olduğu kimi, Azərbaycanda plastik cərrahlarla bağlı iki əsas mərkəz var və bu sahədə şərait yaxşılaşır".

***Anar Kəlbiyev***

## Apteklərdə yoxlama aparıldı

***2026-cı ilin yanvar ayında Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzi tərəfindən ümumilikdə 48 əczaçılıq müəssisəsində yoxlama aparılıb.***

Bu barədə "Unikal"a AEM-dən məlumat verilib.

Yoxlamalardan 10-u Bakı şəhərində, 38-i isə respublikanın digər şəhər və rayonlarında yerləşən apteklərdə həyata keçirilib.

Keçirilən yoxlamaların 32-si planlı, 16-sı isə plandankənar olub.

Nəticələrə əsasən, 7 aptekdə müxtəlif nöqsanlar aşkar edilib. Aşkarlanmış pozuntularla bağlı Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 452.1, 452.2 və 452.3-cü maddələri üzrə müvafiq inzibati protokollar tərtib edilib.

## Qoşqar Təhməzli sahibkarları bu tarixdə qəbul edəcək

***Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli martın 5-i saat 14:00-da Agentliyin inzibati binasında qida sahəsində fəaliyyət göstərən sahibkarları qəbul edəcək.***

"Unikal" xəbər verir ki, qida zəncirinin bütün mərhələlərində fəaliyyət göstərən sahibkarlar, o cümlədən qida məhsullarının istehsalı, emalı, idxal-ixracı, daşınması, satışı və sair sahələrdə çalışan şəxslər onları narahat edən məsələlərlə bağlı Agentlik sədri ilə görüşə bilərlər.

Görüşdə iştirak etmək istəyən şəxslər ad, soyad, fəaliyyət sahəsi, müraciətin məzmunu və telefon nömrələrini göstərərək info@afsa.gov.az elektron poçtu vasitəsilə müraciət etməklə və ya (+994 77) 100 32 56 nömrəsinə zəng etməklə, həmçinin vatsap üzərindən əlaqə saxlamaqla martın 4-dək qəbula yazıla bilərlər.

## Siyəzən rayonunda informasiya və rabitə haqqında

***Siyəzən rayonunda informasiya və rabitə sahəsində fəaliyyət göstərən müəssisələr tərəfindən 2025-ci ildə 2024-cü il ilə müqayisədə göstərilmiş xidmətlərin dəyəri real ifadədə 13,8 faiz artaraq 1688,8 min manat təşkil etmiş, xidmətlərin 1502,7 min manatı (89,0 faizi) əhaliyə göstərilmişdir. Əhaliyə göstərilmiş xidmətlərin dəyəri 2024-cü ilə nisbətən 7,0 faiz artmışdır.***

Xidmətlərin ümumi həcmində dövlət sektorunun xüsusi çəkisi 91,3 faiz, qeyri-dövlət sektorunun xüsusi çəkisi 8,7 faiz təşkil etmişdir.

***Kamil Xəlilov,***
***Siyəzən Rayon Statistika İdarəsinin rəisi***

# Terrorçuluğun maliyyələşdirilməsində ittiham olunan azərbaycanlı dəstənin məhkəməsi başladı

***Terror qruplaşmasının fəaliyyətində iştirak etməkdə təqsirləndirilən Vüqar Nəcəfli, Camal Gözəlov, Tofiq Yusifli, Dadaş Həşimov, Məhəmməd Hüseynli, Müşfiq Həşimov, Mir Cavad Hüseynli və Tural Ağayevin barəsində Dövlət Təhlükəsizliyi Xidmətində (DTX) başlanılmış cinayət işi üzrə məhkəmənin hazırlıq iclası keçirilib.***




"Unikal" xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Namiq Kərimovun sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxslərin anket məlumatları dəqiqləşdirilib.

Daha sonra təqsirləndirilən şəxslərin vəkilləri vəsatətlə çıxış ediblər və onların barəsində seçilmiş həbs qətimkan tədbirinin ev dustaqlığı ilə əvəz olunmasını istəyiblər. Müşavirə keçirən hakimlər heyəti müdafiə tərəfinin verdiyi vəsatəti təmin etməyib və həmin şəxslər barəsində seçilmiş həbs qətimkan tədbiri dəyişdirilmədən saxlanılıb.

Sonra cinayət işinin məhkəmə baxışına verilməsi qərara alınıb və baxış iclası martın 11-nə təyin edilib.

Qeyd edək ki, Dövlət Təhlükəsizliyi Xidmətinin yaydığı məlumata görə, beynəlxalq terror təşkilatları ilə əlaqəsi olan Azərbaycan Respublikasının vətəndaşlarından ibarət cinayətkar dəstələr formalaşdırma, ölkənin şimal bölgəsində meşə massivində yeraltı sığınacaqlar yaradılması ilə müşayiət olunan terror aktlarına hazırlıq, bu məqsədlə silah-sursat, partlayıcı maddələr, texniki qurğular və digər zəruri ləvazimatlarla təchiz etmə əməlləri ilə bağlı DTX-də başlanılmış cinayət işləri üzrə kompleks əməliyyat-istintaq tədbirləri həyata keçirilib.

Aparılan araşdırmalarla terrorçuluq cinayətlərinin törədilməsi məqsədilə yaradılmış dəstənin üzvləri olan Azərbaycan Respublikasının vətəndaşları - Vüqar Nəcəfli, Camal Gözəlov, Tofiq Yusifli və Dadaş Həşimovun 2024-cü ildə Azərbaycan Respublikasını tərk edərək Pakistan İslam Respublikasının Əfqanıstanla sərhədində yerləşən dağlıq ərazilərdə gizləndikləri təsbit edilib.

Onların beynəlxalq terror təşkilatının tərkibində Azərbaycanın hüdudlarından kənarda döyüş təlimlərində və silahlı münaqişələrdə iştirak etmələri, cinayətkar məqsədlərlə silahlı təlimlər keçmələri müəyyənləşdirilib.

DTX tərəfindən tərəfdaş xarici xüsusi xidmət və hüquq-mühafizə orqanları ilə birgə həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində barələrində istintaq aparılan adları qeyd olunan şəxslərin xarici ölkələrin ərazisində ələ keçirilərək Azərbaycana gətirilmələri təmin edilib.

Həmçinin görülən tədbirlərlə Tofiq Yusiflinin və Dadaş Həşimovun terrorçuluq fəaliyyətlərinin Azərbaycan Respublikasının vətəndaşları - Mir Cavad Hüseynli və Tural Ağayev tərəfindən maliyyələşdirildiyi, habelə sonuncuların digər cinayət əməlləri aşkar olunub.

Cinayətkar dəstənin üzvləri - Vüqar Nəcəfli, Camal Gözəlov, Tofiq Yusifli, Dadaş Həşimov, Mir Cavad Hüseynli və Tural Ağayev müvafiq olaraq Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218.2 (cinayətkar birlikdə (təşkilatda), habelə mütəşəkkil dəstələrin təşkilatçılarının, rəhbərlərinin və ya sair nümayəndələrinin birliyində iştirak etmə) və 283-1.3-cü (dini məzhəbləri yayma, dini ayinlərin icrası adı altında, dini düşmənçilik zəminində Azərbaycan Respublikasının hüdudlarından kənarda yaradılmış sabit qruplarda, təlimlərdə və silahlı münaqişələrdə iştirak etmə) maddələri ilə təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb edilmiş, məhkəmənin qərarı ilə barələrində həbs qətimkan tədbiri seçilib.

***Orxan Rasifoğlu***

# 2025-ci ilin 9 ayında Yevlax şəhəri üzrə ödənişli xidmətlər və iaşənin vəziyyətinə dair rəqəmlər

***2025-ci ilin yanvar-sentyabr aylarında əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri 2024-cü ilin yanvar-sentyabr ayları ilə müqayisədə real ifadədə 0,5 faiz artaraq 74223,2 min manat olmuşdur. Hüquqi şəxslər tərəfindən əhaliyə 15588,4 min manatlıq xidmət göstərilmişdir ki, bu da xidmətlərin ümumi dəyərinin 21,0 faizini təşkil etmişdir.***




2025-ci ilin yanvar-sentyabr aylarında hər bir rayon sakini orta hesabla 525,8 manatlıq və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 8 manat az müxtəlif ödənişli xidmətlərdən istifadə etmişdir.

Hüquqi şəxs yaratmadan sahibkarlıqla məşğul olan fiziki şəxslər ödənişli xidmətlərin başqa növləri ilə müqayisədə məişət xidmətləri sahəsində daha geniş fəaliyyət göstərmiş, onlar tərəfindən əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri 9892,4 min manat və ya 13,3 faiz olmuşdur.

2025-ci ilin yanvar-sentyabr aylarında ictimai iaşə dövriyyəsi 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə real ifadədə 3,7 faiz artaraq 14760,0 min manat olmuşdur.

Özəl sektorda ictimai iaşə dövriyyəsinin 0,9 faizi hüquqi şəxs statuslu müəssisələrin, 99,1 faizi isə bu sahədə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fərdi sahibkarların payına düşür. Hüquqi şəxs statuslu müəssisələrdə dövriyyə 2024-cü ilin yanvar-sentyabr ayları ilə müqayisədə 42,6 min manat çox olmuşdur.

2025-ci ilin yanvar-sentyabr aylarında fiziki şəxslərin iaşə şəbəkələrində 14630,2 min manatlıq və ya 2024-cü ilin yanvar-sentyabr aylarında faktiki qiymətlərlə 1142,6 min manat, müqayisəli qiymətlərlə isə 2,9 faiz çox iaşə xidməti göstərilmişdir.

***Yevlax Şəhər***
***Statistika İdarəsinin***
***məsləhətçisi***
***Türkan Familli***

08_27 IYUl-QARA.qxd 2/26/2026 10:31 PM Page 14



# Milli Kitabxanada Xocalı soyqırımının 34-cü ildönümü ilə əlaqədar elektron layihələr təqdim olunub

***25 fevral 2026-cı il tarixində Milli Kitabxanada Xocalı soyqırımının 34-cü ildönümü ilə əlaqədar, Xocalı faciəsi qurbanlarının xatirəsinə həsr olunmuş "26 fevral - Xocalı Soyqırımı", "Khojaly genocide" və "Khojaly tragedy - Photo Exhibition" adlı virtual sərgilər istifadəçilərə təqdim olunub.***




"26 fevral - Xocalı Soyqırımı" adlı virtual sərgidə Xocalı soyqırımı təcavüzkar erməni siyasətinin ən qanlı səhifəsi, bəşər tarixinin qara ləkəsi Xocalı qətliamı, Azərbaycanlılara qarşı apardığı soyqırım siyasəti, işğaldan azad edilmiş ərazilərdə aşkarlanan kütləvi məzarlıqlar, ağlasığmaz qəddarlıqla törədilmiş dəhşətli faciələr haqqında dövri mətbuatda çap olunan məqalələr, Azərbaycan və müxtəlif dillərdə ədəbiyyatlar və fotolar nümayiş olunur.

Virtual sərgi ilə https://anl.az/el/vsb/Xocali_soyqirimi/index.htm linkindən istifadə edərək tanış ola bilərsiniz.

Əcnəbi istifadəçiləri Xocalı soyqırımı haqqında məlumatlandırmaq məqsədilə ingilis dilində təqdim olunan "Khojaly genocide" adlı virtual sərgidə Xocalı faciəsini özündə əks etdirən ingilis dilində kitablar və altyazılı fotoşəkillər nümayiş olunur.

Virtual sərgi ilə http://anl.az/el/vsb/Khojaly_genocide/index.htm linkindən istifadə edərək tanış ola bilərsiniz.

Dünya ictimaiyyətini erməni qəsbkarlarının törətdiyi cinayətlərlə tanış etmək məqsədilə ingilis dilində onlayn rejimdə təqdim olunan "Khojaly tragedy - Photo Exhibition" adlı virtual sərgidə Azərbaycanın görkəmli şəxsiyyətlərinin Xocalı soyqırımı haqqında fikirləri, erməni vandalizmi, Xocalı ağrısını özündə əks etdirən fotolar nümayiş olunur.

Virtual sərgi ilə http://anl.az/el/vsb/Khojaly_genocide/index.htm linkindən istifadə edərək tanış ola bilərsiniz.

# AQTA monitorinqləri davam etdirir

***Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin Şəki-Zaqatala regional bölməsinin fitosanitar müfəttişləri qəhvəyi mərmər bağacığına qarşı qışlama ocaqlarının aşkar və məhv edilməsi məqsədilə monitorinq tədbirlərini davam etdirirlər.***

Agentliyin İnformasiya təminatı və innovativ həllər şöbəsindən "Unikal"a verilən məlumata görə, monitorinqlər Balakən, Zaqatala və Qax rayonlarında həyata keçirilir.

Monitorinq zamanı zərərvericinin qışlama ehtimalı olan yaşayış evləri, yardımçı tikililər, anbarlar və təsərrüfat sahələri, eləcə də digər potensial sığınacaq yerlərinə baxış keçirilir. Aşkar edilən qəhvəyi mərmər bağacığı fərdləri mexaniki üsulla məhv olunur.

Eyni zamanda vətəndaşlarla maarifləndirici söhbətlər aparılır, zərərvericinin yaratdığı təhlükələr və düzgün mübarizə üsulları izah edilir, ictimaiyyətin həmin prosesdə fəal iştirakının vacibliyi vurğulanır.

Monitorinq və maarifləndirmə tədbirləri məktəblərdə, uşaq bağçalarında, kənd icra nümayəndəliklərində və insanların kütləvi toplaşdığı digər ictimai məkanlarda da aparılır.



# DİM imtahan tarixini açıqladı

***Fevralın 28-də Dövlət İmtahan Mərkəzinin elektron imtahanlar korpusunda TOEFL iBT imtahanı keçiriləcək.***

Bu barədə "Unikal"a Dövlət İmtahan Mərkəzindən bildirilib.

Qeyd edilib ki, iştirakçılar imtahanın başlanmasına bir saat qalmışdan gec olmayaraq şəkilli şəxsiyyət vəsiqəsi və ya ümumvətəndaş pasportu ilə birlikdə imtahan binasının önündə olmalıdırlar. İmtahan saat 09:00-da başlanır.

TOEFL iBT imtahanında iştirak etmək üçün 15 və daha aşağı yaş qrupuna aid olan uşaqlar imtahan binasına valideynləri ilə birlikdə gəlməlidirlər. TOEFL iBT imtahanı haqqında daha ətraflı məlumatla DİM-in səhifəsindən tanış olmaq mümkündür.

# Araz və Kür çaylarında brakonyerlik edənlər tutuldu

***Su Nəqliyyatında Polis İdarəsinin əməkdaşları tərəfindən ekoloji cinayətlərin qarşısının alınması istiqamətində profilaktik tədbirlər davam etdirilir.***

DİN-in Mətbuat Xidmətinin Şirvan regional qrupundan "Unikal"a verilən məlumata görə, keçirilən tədbir zamanı Araz çayının İmişli rayonundan keçən hissəsində qadağan edilən üsul və vasitələrlə qanunsuz balıq ovu ilə məşğul



olan M. Zeynalov saxlanılıb. Həmin şəxsdən ov alətləri və qanunsuz olaraq ovladığı müxtəlif növlərə aid balıqlar aşkarlanıb.

Eyni istiqamətdə su polisləri tərəfindən keçirilən növbəti tədbir zamanı Kür çayının Neftçala rayonundan keçən hissəsində analoji əməllərə yol verən Ş. Şirinov və R. Əhmədov da saxlanılıblar. Adı çəkilən şəxslərdən sintetik torlar, ov alətləri və qanunsuz ovlanmış balıqlar aşkarlanıb.

Faktlarla bağlı araşdırma aparılır.

# 2025-ci ildə Sumqayıt şəhərinin sosial-iqtisadi göstəriciləri belə olub

***2025-ci ildə məhsul buraxılışının həcmi 5360411,8 min manat olmuşdur. 2025-ci il ərzində sənaye təsərrüfat subyektləri tərəfindən istehsal olunmuş mal və xidmətlərin həcmi ötən illə müqayisədə 3,5 faiz artaraq 4113474,6 min manat təşkil etmişdir.***



Hesabat dövründə emal sənayesində 2025-ci il ərzində 3593549,7 min manatlıq məhsul istehsal olunmuş və sənaye xarakterli xidmətlər göstərilmişdir. Buda 2024-cü ilə nisbətən sabit qiymətlərlə 6,0 faiz çox olmuşdur.

2025-ci ildə sənaye məhsulunun 0,03 faizi mədənçıxarma, 87,36 faizi emal, 11,73 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,88 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuşdur.

**Tikinti**

2025-ci ildə şəhərin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 349726,3 min manat vəsait yönəldilmişdir.

Əsas kapitala yönəldilmiş vəsaitlərin 263327,4 min manatı və ya 75,3 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur.

Əsas kapitala yönəldilmiş vəsaitin 72,2 faizini dövlət sektoru, 27,8 faizini isə qeyri-dövlət sektoru təşkil etmişdir.

**Nəqliyyat**

2025-ci il ərzində nəqliyyat sahəsində fəaliyyət göstərən statistik vahidlərin təqdim etdikləri işlər, müayinələr nəzərə alınaraq göstərilmiş işin həcmi əvvəlki illə müqayisədə 2,2 dəfə artaraq 131608,5 min manat təşkil etmişdir.

2025-ci ildə avtomobil nəqliyyatı ilə 4190 min ton yük daşınmış və 2024-cü ilə nisbətən 6,2 faiz, avtomobil nəqliyyatı sahəsində fəaliyyət göstərən təsərrüfat subyektləri tərəfindən 131520 min nəfər sərnişin daşınmış və 2024-cü ilə nisbətən 7,4 faiz artmışdır.

**İnformasiya və rabitə**

İnformasiya və rabitə sahəsində fəaliyyət göstərən müəssisələr tərəfindən 2025-ci ildə 107047,6 min manat təşkil etmişdir ki, onun da 25513,2 min manatı (23,8 faizi) əhali tərəfindən istifadə olunmuşdur. Əhaliyə göstərilmiş xidmətlərin dəyəri 2024-cü ilə nisbətən 14,6 faiz artmışdır

Xidmətlərin ümumi həcmində dövlət sektorunun xüsusi çəkisi 9,2 faiz, qeyri-dövlət sektorunun xüsusi çəkisi 90,8 faiz təşkil etmişdir.

**Ticarət və istehlak bazarı**

2025-ci il ərzində istehlakçıların tələbatının ödənilməsi məqsədi ilə 2756938,3 min manat olmaqla olmaqla 2024-cü ilə nisbətən müqayisəli qiymətlərlə 11,0 faiz artıq istehlak malları satılmış və ödənişli xidmətlər göstərilmişdir.

Hesabat dövründə ticarət dövriyyəsinin həcmi ötən ilə müqayisədə sabit qiymətlərlə 11,4 faiz artaraq 2210414,9 min manat təşkil etmişdir.

İaşə şəbəkələrində əhaliyə 62764,7 min manatlıq və ya ötən ilə müqayisədə 12,2 faiz çox iaşə xidmətləri göstərilmişdir.

Əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri 2024-cü ilə nisbətən real ifadədə 9,0 faiz artaraq 483758,7 min manat təşkil etmişdir.

**Əhali**

İlin əvvəlindən Sumqayıt şəhər əhalisinin sayı (məcburi köçkünlər istisna olmaqla) 548 nəfər artaraq 01.01.2026-cı il vəziyyətinə 428,2 min nəfərə çatmışdır.

Ədliyyə Nazirliyinin şəhər qeydiyyat şöbələri tərəfindən 2025-ci ildə 2529 doğulan körpə qeydə alınmış və ötən illə müqayisədə əhalinin hər min nəfərinə bu göstərici azalaraq 6,4-dan 5,9-a düşmüşdür.

2025-ci ildə 2003 ölüm halı qeydə alınmış və ötən ilə müqayisədə əhalinin hər 1000 nəfərinə bu göstərici dəyişməyərək eyni səviyyədə (4,7) qalmışdır.

2025-ci ildə şəhərdə 1464 nikaha daxil olma və 820 boşanma halları qeydə alınmışdır.

***Sumqayıt Şəhər Statistika İdarəsi***

08_27 IYUl-QARA.qxd 2/26/2026 10:32 PM Page 15



# ABŞ İrana hücumdan çəkinir - Səbəbi isə...



***ABŞ İrana edilən hücumun onun arsenalını tükəndirəcəyindən və Amerika qoşunları arasında itkilərə səbəb olacağından qorxur.***

"Unikal" xəbər verir ki, bu barədə "Politico" nəşri məlumat yazıb.

Nəşrin məlumatına görə, bu səbəbdən ABŞ İrana qarşı "baş kəsmə hücumu" ssenarisini nəzərdən keçirir və bu ssenariyə İranın nüvə obyektləri və İslam Respublikasının yüksək rəhbərliyi də daxil olacaq.

***Gülayə Mecid***

# "Ah, xəstə insanlar" - Trampdan sillə kimi cavab

***ABŞ prezidenti Donald Trampın Konqresdə çıxışı zamanı diqqətəlayiq bir hadisə yaşanıb.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, Trampın xarici siyasət başlığı altında istifadə etdiyi "Mən 8 müharibəyə son qoydum" ifadəsi zalda oturan Demokratların gülüşünə səbəb olub.

Tramp dərhal zaldakı reaksiyaya "Ah, bu gülməli deyilmi? Xəstə insanlar", - deyə cavab verib. Onun bu ifadəsi Demokratlar arasında gərginlik yaradıb.

ABŞ lideri çıxışının davamında bildirib ki prezidentliyi dövründə Amerika müxtəlif hərbi əməliyyatlara son qoyub və yeni genişmiqyaslı müharibələrdən yayınıb.

***Gülayə Mecid***

# Rusiya XİN ölkənin Sülh Şurasına daxil olması ilə bağlı mövqeyini hələ də formalaşdırır



***Rusiya Xarici İşlər Nazirliyi (XİN) ölkənin Sülh Şurasına daxil olması ilə bağlı mövqeyini hələ də formalaşdırır.***

Bunu Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov brifinq zamanı bəyan edib.

"XİN hələ də mövqeyini formalaşdırır. Bilirsiniz ki, bir sıra dövlətlərin, o cümlədən bizə dost olan ölkələrin mövqeyi kifayət qədər birmənalı deyil, bütün bunlar nəzərə alınır", - o deyib.

# "Rusiya düşmənimizdir" - Polşa lideri

***Polşa prezidenti Karol Navrotski Rusiyanın Qərbə qarşı sivilizasiya müharibə apardığını bildirib.***

"Unikal" xəbər verir ki, onun sözləri "Polskie Radio" tərəfindən sitat gətirilib.

Navrotski bildirib ki, "Rusiya Şimali Atlantika Alyansını özünün əsas düşməni hesab edir və Polşa da bu cür yanaşır. Birliyi zəiflətmək üçün Rusiya müəyyən addımlar atır və şərq cinahındakı dövlətləri qorxutmağa davam edir".

O, həmçinin Rusiya tərəfindən Avropada həyata keçirilən yüksək səviyyəli hibrid əməliyyatlar və təsir kampaniyalarına diqqət çəkib.

***Gülayə Mecid***

# "Türkiyə hər zaman Azərbaycanın yanındadır" - Hakan Fidan

***Türkiyənin xarici işlər naziri Hakan Fidan Xocalı soyqırımının ildönümü ilə bağlı başsağlığı verib.***

"Unikal" xəbər verir ki, o, bununla bağlı özünün sosial şəbəkə hesabında bildirib.

"Xocalı soyqırımının 34-cü ildönümündə həyatını itirən azərbaycanlı qardaşlarımızı rəhmətlə yad edirəm. Qardaş Azərbaycan xalqının kədərini qəlbimizin ən dərin yerində hiss edirik. Türkiyə "Tək millət, iki dövlət" anlayışı ilə hər zaman can Azərbaycanın yanındadır", - XİN rəhbəri qeyd edib.

# "Bölgəmizdə əsl sülh hökm sürür" - Paşinyan

***"2025-ci ildə Ermənistan və Azərbaycan qoşunları arasında atışma nəticəsində sərhəd itkisi olmayıb. Bu, müstəqilliyimizdən bəri ilk il olub".***



"Unikal" xəbər verir ki, bunu Ermənistanın Baş naziri Nikol Paşinyan deyib.

Paşinyan Polşa Beynəlxalq Münasibətlər İnstitutunda xarici səfirlər, diplomatlar və beyin mərkəzlərinin nümayəndələri ilə görüşü zamanı Ermənistanla Azərbaycan arasında bərqərar olmuş sülhə toxunub. O, sülh arxitekturasının 1991-ci il Alma-Ata Bəyannaməsinə əsaslandığını və sülh prosesinin 8 avqustda Vaşinqtonda qəbul edilmiş Ermənistanla Azərbaycan arasında sülh çərçivəsi haqqında birgə bəyannamənin imzalanması ilə zirvəyə çatdığını vurğulayıb.

"İndi bölgəmizdə əsl sülh hökm sürür. Xalqımıza çatdırmağa çalışdığım əsas fikir budur ki, indi sülh var, amma sülh möhkəmləndirilməli, institusionallaşdırılmalıdır və bunun üçün davamlı səylər göstərməliyik. Çünki sülh mövcuddur, amma onu laqeydlik etmək olmaz, əks halda məhv ola bilər", - deyə Paşinyan qeyd edib.

***Ağarza Elçinoğlu***

# Tramp müharibənin bir ay ərzində bitməsini istədi

***"Axios" portalı anonim mənbələrə istinadən Ukrayna və ABŞ prezidentləri arasında telefon danışığının əlavə təfərrüatlarını təqdim edib.***

"Unikal" portala istinadən xəbər verir ki, Zelenski yanvar ayının sonlarında Davosda keçirilən görüşdən bəri Donald Trampla ilk dəfə danışıb. Söhbət 30 dəqiqə davam edib. "Axios"un üç mənbəsi söhbətin dostcasına və müsbət keçdiyini bildirib.

Məlumata görə, Trampın xüsusi elçiləri Stiv Uitkoff və Cared Kuşner də zəngdə iştirak ediblər. Qeyd olunur ki, telefon danışığında Zelenski, adət etdiyi kimi, Trampa köməyinə görə təşəkkür edib və bildirib ki, Rusiya prezidenti Vladimir Putini müharibəni bitirməyə yalnız Amerika prezidenti məcbur edə bilər.



"Daha sonra Zelenski müharibənin bu il bitəcəyinə ümid etdiyini bildirib və Tramp cavab olaraq müharibənin çox uzun müddət davam etdiyini və bir ay ərzində bitməsini istədiyini bildirib", - deyə mənbə "Axios"a bildirib.

***Gülayə Mecid***

# İran Azərbaycanla sərhəd boyunca uçuş xəbərdarlığı elan etdi

***İran ötən gün Azərbaycanla sərhəd boyunca NOTAM (uçuş xəbərdarlığı) bildirişi yayıb.***



Bu barədə "Flightradar24" monitorinq resursunun sosial şəbəkə hesabında məlumat paylaşılıb.

Bildiriş elanına səbəb qeyd olunan ərazidə yer səviyyəsindən 10.000 futa (təxminən 3050 metr) qədər yüksəklikdə pilotsuz uçuş aparatlarından (PUA) istifadədir. Həmin saatlarda bölgədə İslam İnqilab Keşikçiləri Korpusunun PUA-larının intensiv uçuşları qeydə alınıb. Qeyd edək ki, NOTAM (Notice To Air Missions) müəyyən bir ərazidə və ya hava məkanında müvəqqəti təhlükə və ya məhdudiyyət barədə pilotlar və hava nəqliyyatı üçün rəsmi bildirişdir.

# "Heç bir narahatlığımız yoxdur" - Paşinyan 102-ci hərbi bazadan danışdı

***"2024-cü ilə qədər əksər sərhəd keçidləri Rusiyanın nəzarəti altında idi. Məsələn, beynəlxalq hava limanımızda Rusiya sərhədçilərinin iştirakı var idi, lakin hazırda Ermənistan Respublikasının bütün sərhəd keçidləri sərhədçilərimiz tərəfindən idarə olunur".***

"Unikal" xəbər verir ki, bunu Ermənistanın Baş naziri Nikol Paşinyan deyib.

Paşinyan Polşa Beynəlxalq Münasibətlər İnstitutunda xarici səfirlər, diplomatlar və beyin mərkəzlərinin nümayəndələri ilə görüşü zamanı Rusiyanın Ermənistandakı hərbi mövcudluğu ilə bağlı sualı cavablandırıb: "Təbii ki, biz Rusiyanın oradakı mövcudluğuna minnətdarıq. 1990-cı illərin əvvəllərində yeni müstəqil dövlət olaraq, bu tip xidməti göstərmək imkanımız yox idi, amma indi imkanlarımızı inkişaf etdiririk.

Rusiya hərbi bazasına (102-ci hərbi baza - red.) gəldikdə isə, bizim heç bir planımız, proqramımız və Rusiya



hərbi bazasının mövcudluğu ilə bağlı heç bir narahatlığımız yoxdur".

***Ağarza Elçinoğlu***

08_27 IYUI-QARA.qxd 2/26/2026 10:32 PM Page 16



# Azərbaycan güləşçiləri reytinq turnirinin ilk günündə 3 medal qazanıblar










***Albaniyanın paytaxtı Tiranada "Muhamet Malo" turnirinə start verilib.***

Reytinq turnirinin ilk günündə sərbəst güləş üzrə millinin 5 üzvü mübarizə aparıb və onların 3-ü fəxri kürsüyə qalxıb.

İslam Bazarqanov (57 kiloqram) almaniyalı Niklas Steşele (3:2), amerikalı Liam Smit Kroni (5:0) və Puerto Riko təmsilçisi Daryan Kruza (6:1) qalib gələrək yarımfinala yüksəlib. Milli üzvü yarımfinalda rusiyalı Ramiz Qamzatova 1:3 hesabı ilə məğlub olsa da, hindistanlı Akşay Tanaci Dheredən güclü (9:2) olaraq bürünc medalı boynundan asıb.

Rəşid Babazadə (65 kiloqram) almaniyalı Niko Meqerle (12:2), bolqarıstanlı Mikyay Salim Nayim (8:7) və ekvadorlu Coşua Aleksandr Kramerə (10:0) qalib gələrək adını yarımfinala yazdırıb. Finalın bir addımlığında Azərbaycan əsilli amerikalı dünya çempionu Vitali Orucovla qarşılaşma gərgin mübarizə şəraitində keçib. Əzmkarlıq nümayiş etdirən Rəşid son saniyədə 4 xallıq fəndi icra edərək yekunda 18:15 hesablı qələbəylə finala vəsiqə qazanıb. Babazadə finalda hindistanlı Sucet Sucetlə qarşılaşıb. U23 dünya çempionatının son qalibiylə bacarmayan (0:10) Rəşid turniri gümüş medalla başa vurub.

Kənan Heybətov (74 kiloqram) 1/8 finalda qırğız Orozbek Toktombetova (1:3), onunla eyni çəkidə çıxış edən Turan Bayramov isə eyni mərhələdə amerikalı Kuinsi Mayls Mondeyə (1:5) məğlub olub.

Arseniy Djioyev (86 kiloqram) rusiyalı dünya və 2 qat Avropa çempionu Axmed Usmanovu 3:1, gürcüstanlı dünya və Avropa mükafatçısı Vladimeri Qamkrelidzeni isə 6:4 hesabı ilə üstələyib. Təmsilçimiz finalın bir addımlığında rusiyalı İbragim Kadiyevə 2:3 hesabıyla məğlub olub. Arseniy amerikalı 2 qat olimpiya mükafatçısı və 4 qat dünya çempionu Kayl Deykə (4:1) qalib gələrək bürünc medala sahib çıxıb(azərtac).

# Arda "Real"da 100-cü oyununu keçirdi

***"Real"ın futbolçusu Arda Güler Madrid klubunda yubiley matçına çıxıb.***

"Unikal" xəbər verir ki, Türkiyə millisinin üzvü "Real"da 100-cü oyununu keçirib.



UEFA Çempionlar Liqasının pley-off mərhələsinin "Benfika" ilə cavab matçı Türkiyə millisinin üzvü üçün əlamətdar olub. Arda 21 yaşını və yubileyini eyni gündə qeyd edib.

Klub prezidenti Florentino Peres oyundan əvvəl Ardaya üzərində 100 yazılmış xatirə formasını təqdim edib.

Qeyd edək ki, 2023-cü ildən "Real"da çıxış edən Arda komanda ilə hərəsi bir dəfə olmaqla Çempionlar Liqası, Klublararası Dünya Kuboku, UEFA Superkuboku, La Liqa və İspaniya Superkubokunu qazanıb.

# "Mançester Yunayted"dən "Beşiktaş"a keçir

***"Mançester Yunayted"in və Türkiyə millisinin qapıçısı Altay Bayındır bu yay Beşiktaşa keçəcək.***

"Unikal" xəbər verir ki, Türkiyə klubu artıq oyunçu ilə şəxsi şərtləri razılaşdırıb.

Əvvəlcə 3 milyon avro maaş müzakirə olunsa da, tərəflər sonda 2 milyon avro məbləğində razılığa gəliblər. "Qırmızı şeytanlar" ləqəbli Mançester Yunayted qapıçını 5 milyon avroya satmağa razılaşıb və o, yay transfer pəncərəsi açıldıqdan dərhal sonra yeni komandasına qoşulacaq.

Altay Bayındır bu mövsüm altı oyunda meydana çıxıb və 11 qol buraxıb. O, daha əvvəl Ankaragücü və Fənərbağça komandalarında çıxış edib.



# "Yuventus"un kapitanı: "Ağlamaq istəyirəm"

***"Yuventus"un kapitanı Manuel Lokatelli Çempionlar Liqasının pley-off mərhələsində "Qalatasaray" səddini keçə bilməmələri və mübarizəni başa vurmaqları haqda danışıb.***

QOL.az xəbər verir ki, bu komandalar arasında ilk matçda Türkiyə klubu 5:2 hesablı qələbə qazanıb. Ötən gecə "Yuventus" cavab görüşündə 3:2 hesabı ilə qalib gəlsə də, ümumi hesabda üstün və 1/8 finala yüksələn tərəf "Qalatasaray" olub.

Lokatelli görüşdən sonra açıqlamasında məyusluğunu belə ifadə edib: "Düzünü desəm, ağlamaq istəyirəm. Biz həqiqətən inanırdıq. Bu oyuna canımızı qoyduq. İlk oyundakı məğlubiyyət işləri çətinləşdirdi, amma bu gün hər kəsə ürəkdən təşəkkür etmək istəyirəm. Stadiondakı atmosfer inanılmaz idi".

# Çempionlar Liqası: "Qalatasaray" 1/8 finalda




***UEFA Çempionlar Liqasında bu gün pley-off mərhələsinə yekun vurulub.***

"Unikal" xəbər verir ki, 1/8 finala yüksələn daha 4 komanda müəyyənləşib.

UEFA Çempionlar Liqası

Pley-off mərhələsi, cavab görüşləri

"Atalanta" (İtaliya) - "Borussiya" (Dortmund, Almaniya) 4:1 / İlk oyun - 0:2

PSJ (Fransa) - "Monako" (Fransa) 2:2 / İlk oyun - 3:2

"Yuventus" (İtaliya) - "Qalatasaray" (Türkiyə) 3:2 / İlk oyun - 2:5

"Real" (İspaniya) - "Benfika" (Portuqaliya) 2:1 / İlk oyun - 1:0

Qeyd edək ki, ötən gün keçirilən matçlardan sonra "Atletiko" (İspaniya), "Bayer 04" (Almaniya), "Budyo Qlimt" (Norveç) və "Nyukasl" (İngiltərə) komandaları 1/8 finala vəsiqə qazanıblar.

Bundan əvvəl turnirin ümumi mərhələsinin nəticələrinə əsasən, "Arsenal", "Bavariya", "Liverpul", "Tottenhem", "Barselona", "Çelsi", "Sportinq" və "Mançester Siti" birbaşa 1/8 finala çıxmışdı.

# Ronaldo İspaniya klubunun səhmlərini aldı




***Portuqaliya yığmasının və "Əl Nəsrin" ulduzu Kriştianu Ronaldo İspaniyanın "Almeriya" klubunun səhmlərini alıb.***

O, bu klubun səhmlərinin 25 faizinə sahib çıxıb.

Ronaldo bunun çoxdankı arzusu olduğunu bildirib: "Meydandan kənarda da futbola töhfə vermək mənim çoxdankı arzum idi. "Almeriya" möhkəm təməlləri və aydın inkişaf potensialı olan bir İspaniya klubudur. Klubun növbəti inkişaf mərhələsini dəstəkləmək üçün rəhbərlik heyəti ilə birlikdə işləməyi səbirsizliklə gözləyirəm".

# "Sumqayıt"ın futbolçusu üçün mövsüm başa çatdı

***"Sumqayıt"ın Misli Premyer Liqasının 21-ci turunun "Qəbələ" ilə matçında zədələnən futbolçusu Roi Kehat vətəni İsraildə əməliyyat olunub.***



Bu barədə klubun mətbuat xidməti məlumat yayıb. Axill vətərinin dabana qədər tam yırtığı diaqnozu qoyulan yarımmüdafiəçi professor Eran Tamir tərəfindən əməliyyat edilib.

Uğurlu keçən cərrahi müdaxilə nəticəsində Roi Kehat təxminən 1 ay sonra fizioterapevt müşayiəti ilə mərhələli şəkildə reabilitasiya prosesinə start verəcək. O, ən az mövsümün sonuna qədər "Sumqayıt"a kömək edə bilməyəcək.

Qeyd edək ki, R.Kehat cari mövsüm Misli Premyer Liqasında 21 matça çıxıb, 2 qol vurub, 1 qolun ötürməsini verib.

# AFFA bu klubları cərimələdi

***AFFA İntizam Komitəsi Misli Premyer Liqasının XXI turunda baş verən qayda pozuntularına görə "Şamaxı" və "Kəpəz" klublarını cərimələyib.***

"Unikal" xəbər verir ki, bu barədə qurumun İntizam Komitəsinin iclasında qərar qəbul olunub.

"İmişli" - "Şamaxı" oyununda qonaq komandanın 4 futbolçusu sarı vərəqə ilə cəzalandırıldığı üçün klub 700 manat cərimə edilib. "Sabah" - "Kəpəz" matçının 90+8-ci dəqiqəsində isə Gəncə təmsilçisinin futbolçusu Şakir Seyidov ciddi qayda pozuntusuna görə birbaşa qırmızı vərəqə alaraq meydandan qovulub.

Bu səbəbdən oyunçu 2 matçlıq diskvalifikasiya olunub, "Kəpəz" klubu isə 1000 manat məbləğində cərimə olunub.